**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına Əlyazmalar İnstitutu**

# Səməd Vurğun
# Arxivinin izahlı təsviri

Təsvir edənlər:

Mehri Məmmədova (f.e.n).
Mərziyyə Paşayeva elmi işçisi.

## ÖN SÖZ

Azərbaycan xalqının görkəmli şəxsləri haqqında dəfələrlə tədqiqat işləri aparılmasına baxmayaraq, bütövlükdə həyat və yaradıcılıqlarını öyrənmək üçün mütləq onların arxiv sənədlərini araşdırmaq lazım gəlir.

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunu bu cəhətdən öz xalqının mənəvi sərvət xəzinəsi adlandırmaq yerində olar. Xəzinədə qədim və orta əsr yazılı abidələri ilə yanaşı XIX–XX yüzilliklərdə yahayıb-yaratmış Azərbaycan ədəbiyyat və mədəniyyət xadimlərinin şəxsi arxivləri də mühafizə olunur, araşdırılıb öyrənilir. Belə arxivlərdən biri də Azərbaycanın xalq şairi Səməd Vurğuna məxsusdur.

Görkəmli söz ustası Səməd Vurğun Vəkilovun arxivi institutun xəzinəsində saxlanılan 32 mədəniyyət xadiminin arxivləri içərisində ən zənginlərindən biridir. Burada 1500-dən artıq adda sənəd mühafizə edilir. Sənədlər sırasında əsas yerlərdən birini şairin bir ictimai-siyasi və dövlət xadimi kimi səfərlərinin nəticəsi olan xatirələri tutur. 1936-cı ildə Azərbaycan nümayəndələri ilə birlikdə Kremldə olması və dövlət, partiya xadimləri ilə görüşü, 1951-ci ildə sovet mədəniyyət xadimlərinin nümayəndə heyətilə Bolqarıstana səfəri, Muğan düzündən, xüsusən Astrxanbazardan aldığı təəssürat haqqında şairin xatirələri nəzər-diqqəti cəlb edir.

Bu xatirələrin bir qismi avtoqraf, digər hissəsi makina çapıdır. Yazıçının arxivində əsas yeri, əlbəttə, onun şeirləri, poemaları və dram əsərləri tutur. Burada 100-dən artıq

şeirin avtoqrafı vardır. «Aygün», «Ayın əfsanəsi», «Bakının dastanı», «Bəsti», «Böyük günlər», «Qəhrəmanın hünəri», «Zamanın bayraqdarı», «Zəncinin arzuları», «Yazla qışın deyişməsi», «Gələcək günlər», «Mingəçevir», «Muğan», «Muğan qızı», «Ölən məhəbbət», «Ölüm kürsüsü» poemalarının avtoqrafları və bir sıra poemalarının makina nüsxələri onun şəxsi fondunu zənginləşdirir.

«İnsan» dramının avtoqraf nüsxəsi üzərində müəllif tərəfindən bir sıra düzəlişlər edilmişdir. Bu nüsxəni S.Vurğunun 1963-cü ildə çap edilmiş «Əsərləri»ndəki nüsxə ilə müqayisə edərkən fərqlər meydana çıxır ki, bu da əlimizdə olan əlyazmanın əsərin ilk variantı olması fikrini təsdiqləyir. Dramının pərakəndə parçaları da saxlanılır.

Təəssüflə qeyd etmək lazımdır ki, dramının avtoqraf nüsxəsi yoxdur. Burada ancaq əsərin Azərbaycan və rus dillərində makina çapı vardır.

Şairin «Fərhad və Şirin» əsərinin isə avtoqraf nüsxəsi olsa da, tam deyil. Pyesin rus dilinə tərcümə olunmuş makina çapı, «Xanlar» dramının ilk nüsxəsinin avtoqrafı və makina çapı arxivdəki qiymətli materiallar sırasındadır.

Şairin müxtəlif mövzularda yazdığı məqalələri, məruzə və çıxışlar onun şəxsi arxivini zənginləşdirir. Müxtəlif məsələlərə həsr edilmiş bu məruzə çıxışlar ədəbiyyatımızın XX yüzilliyin I yarısındakı durumunu öyrənmək baxımından çox qiymətlidir. Arxivdə müəllifin 40-a yaxın belə məruzə və çıxışının orijinal nüsxələri vardır.

Böyük şairin sənədləri 1964-cü ildə bizim Əlyazmalar İnstitutuna təhvil verilmişdir. Bu arxiv 1969-cu ildə Səməd Vurğunun böyük qardaşı Mehdixan müəllimin təqdim etdiyi digər materiallarla bir daha zənginləşdirilmişdir.

S.Vurğunun müxtəlif təşkilatlara və şəxslərə yazdığı 26 məktub da öz məzmunlarına görə əhəmiyyətlidir. Məsələn, Azərbaycan KP MK-ya yazdığı məktubunda S.Vurğun «İnsan» pyesinin fəlsəfi konsepsiyasının yanlış tənqid edilməsinə qarşı çıxır. Bu növ məktublar 1946-48-ci illərə

aiddir.

Hər hansı bir şəxsiyyətin həyat yolunu öyrənərkən ona məxsus olan epistolyar irsin araşdırılması faydalı olur. Şairin qardaşı tərəfindən onun fonduna bağışlanan məktublar dövrün ədəbi, ictimai-siyasi, sosial vəziyyətini, şairin dövrə münasibətini öyrənmək üçün qiymətli məlumatlar verir.

Burada həmin məktublardan bir neçəsini açıqlamaq olardı.

1927-1928-ci illərdə S.Vurğunun qardaşına yazdığı məktublarda gənclik illərində müxtəlif həyat hadisələri, xüsusilə məhəbbət, yaradıcılıq məsələləri, paritiya istiqamətinə münasibəti və s. haqqında coşqun gənclik hissiyyatını əks etdirən parçalar vardır. Bu məktublarda şair həmin dövrdə yazdığı şeirlərindən də bəhs edir. Şairin gənclik dövrü məhz həmin məktublarda öz əksini tapmışdır.

1942-1943-cü illərdə yazdığı məktublar onun Moskva səfərindən, dövlət himni yazılması məsələsindən, yeni əsərlərindən, Aşıq Mirzənin yaradıcılığından və s. danışır.

Mehdixan Vəkilov S.Vurğuna yazdığı məktublarda da şairin həyat hadisələrinə münasibətindən, gənclik düşüncələri, şairin inqilabi mövzulara münasibəti, proletar ədəbiyyatı problemi və s. məsələlərdən bəhs edir.

Şəxsi arxiv sənədləri göstərir ki, bu böyük şairin çoxlu pərəstişkarları olmuş, onlarla məktublaşmışdır.

Kireyevdən, Konstantin Simonovdan, S.Rüstəmdən, N.Tixonovdan, Tuqanovdan, Tursunovdan, Faruq Abdulladan, C.Xəndandan, H.Araslıdan, H.Mehdidən, Çernışevskinin nəvəsi Nina Çernışevskayadan və dövrün başqa görkəmli şəxslərindən S.Vurğuna çoxlu miqdarda müxtəlif məzmunlu məktublar göndərilmişdir. Ədəbiyyat problemləri şairi dövrünün ədəbi simaları ilə sıx bağlamışdır. Litva yazıçısı A.Bekslov S.Vurğuna yazdığı məktubunda şairin xalqlar arasında sevilməsindən danışır, onun yardıcılığına yüksək qiymət verir və xalq şairi adı alması

münasibətilə təbrik edir.

Şəxsiyyətinə aid sənədlər bölməsində şairə məxsus arayışlar, vəsiqələr, buraxılış vərəqələri, mandatlar, dəvətnamələr, təliqələr və s. saxlanılır. Bu sənədlərlə tanış olarkən qısa ömür sürmüş bir insanın enerjisinə, qabiliyyətinə heyran qalırsan. Sənədlər göstərir ki, o, dayanmadan, durmadan öz xalqının, öz respublikasının şərəfini, izzətini artırmağa, onu qoruyub saxlamağa can atmışdır.

Şəxsi fonddakı müxtəlif şəhərlərdən göndərilən təliqələrin əksəriyyəti onun əsərləri ilə əlaqədardır. Bu sənədlərdə şairin əsərlərinin müxtəlif dillərə tərcüməsindən və b. bu kimi məsələrdən bəhs edilir.

Burada şairlə bağlı bir xatirəni qeyd etməyə bilmirəm.

Səməd Vurğunu sevə-sevə ədəbiyyat kitabından oxuyub öyrəndiyimiz zaman Ordubad şəhərinə bir səs yayıldı.

Xalqımızın görkəmli oğlu, əziz şairimiz Səməd Vurğun Ordubada, gənclərlə görüşə gəlir.

Mən həmin vaxt Ordubad orta məktəblərində, ziyalılar arasında necə canlanma yarandığını təsvir etməkdə özümü aciz sayıram.

... Evlərdəki gül və limon dibçəkləri Səməd Vurğunun keçəcəyi küçələrə düzüldü. Biz şagirdlər evimizdən xalçalar gətirib, məktəbin pilləkənlərinə, eyvanına sərdik.

O gəldi, özü ilə Ordubada bir toy-bayram əhval-ruhiyyəsi gətirdi.

Məktəbin yuxarı sinif şagirdlərini onunla görüşə buraxan zaman ədəbiyyat müəllimimiz Mir Yəhya Seyidov mənə yaxınlaşıb dedi ki, Mehri, sən şagirdlər arasından şairi salamlayacaqsan, hazırlaş!

Mən özümü itirdim. Yox, müəllim, mən bunu edə bilmərəm! O böyük insanın qarşısında dayana bilmərəm, - dedim. Çox keçmədi ki, mənim adım çəkildi. Ayağa qalxıb, döyünən ürəyim, titrəyən ayaqlarımla kürsüyə qalxdım və ilk anda nə deyəcəyimi bilmədim. Axı mən 9-cu sinif şagirdi Səməd Vurğun kimi bir dahi insanla necə, hansı sözlərlə

danışım?!

Yerdən gələn işarələrdən sonra dinə bildim:

- Salam, hamımızın istəkli şairimiz!

Sizi 1 nömrəli Ordubad şəhər orta məktəbin şagirdləri adından salamlayıram və xoş gəlmisiniz deyirəm.

Əziz şairimiz, Siz Aleksandr Sergeyiviç Puşkinin «Yevgeni Onegin» əsərini necə də şirin dillə tərcümə etmisiniz.

Sonra Tatyananın Oneginə yazdığı məktubundan bir parçanı söylədim və əlavə etdim ki, biz şagirdlər arzu edirik ki, yarımçıq qoyduğunuz «Aygün» poemasını sona çatdırasınız.

O, məni çox diqqətlə dinləyirdi. Ayağa qalxıb mənə yaxınlaşdı və əlini başımdakı ağ kəlağayıma çəkib, gülümsədi: «Mənim Aygünüm sənsən, amma söz verirəm ki, əsəri bitirəcəyəm», - dedi.

Mən çəkinə-çəkinə ona tamaşa etdim. Gözlərində sevinc, üzündə təbəssümü yaxından görürdüm və bir şagird olaraq, özümü xoşbəxt sandım.

Bu gün onun ev laboratoriyasından mənim çalışdığım instituta hədiyyə edilmiş materialların izahlı təsvir kitabını yüksək hörmət və məhəbbətlə nəşrə hazırlayarkən könlümün dərinliyində izlər qoyan həmin görüş barəsində susa bilmədim və ilk dəfə olaraq bu xatirəni yazıya aldım.

* * *

Səməd Vurğunun şəxsi arxivinin izahlı təsviri aşağıdakı bölmələr üzrə yerinə yetirilmişdir:

1. Tərcümeyi-hal
2. Xatirələr
3. Şeirlər
4. Poemalar
5. Dramlar
6. Məqalələr

7. Məruzələr
8. Çıxışlar
9. Rəylər
10. S.Vurğunun məktubları
11. Müxtəlif şəxslərin S.Vurğuna məktubları
12. S.Vurğun haqqında xatirələr
13. Şəxsiyyətinə aid sənədlər
14. Dəvətnamələr
15. Təliqələr
16. Müxtəlif şəxslərin S.Vurğuna həsr etdiyi əsərləri
17. Müxtəlif şəxslərin tərcümeyi-halları
18. Başqalarının əsərləri
19. Başqalarının məqalələri
20. Müxtəlif şəxslərin müxtəlif şəxslərə məktubları
21. İctimai fəaliyyəti ilə əlaqədar materiallar
22. Qəzet və jurnallar

Bölmələr əlifba sırası və tarixi ardıcıllıqla düzülmüşdür.

***Mehri Məmmədova***,
*filologiya elmləri namizədi*

***Mərziyə Paşayeva***

# TƏRCÜMEYİ - HALLARI

Avtoqraf.
Azərbaycan dilində, latın əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ saya kağıza bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də düzəlişlər edilmişdir.
Yazılış tarix yoxdursa da, məzmunundan aydın olur ki, şair bu tərcümeyi - halı 1938-ci ildə «Xanlar» dramının səhnəyə çıxarılmasından əvvəl yazmışdır.
Başlanır: Səməd Vurğun Yusif oğlu Vəkilov 1906-cı ildə Qazax rayonunun Salahlı kəndində anadan olmuşdur…
Bitir:… «Xanlar» adlı mənzum dramıdır.
Ölçüsü: 21x30; həcmi: 2 vərəq, s.v. 24.

## Yenə.

Avtoqraf.
Rus dilində
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ saya kağızlara qırmızı mürəkkəblə yazılmış və üzərində həmin mürəkkəblə düzəlişlər edilmişdir.
Tərcümeyi-hal bir qədər xatirə tərzində yazılmışdır.
Başlanır: С 8 лет я вступал в сельскую школу…
Bitir: …Нам надо воздвигать большие дома социалистического искусства!
Ölçüsü: 21x31; həcmi: 5 vərəq. s.v. 230.

# Yenə.

Avtoqraf.

Yazılış tarixi qeyd edilməmişdir.

Rus dilində.

Ağ saya kağıza bənövşəyi mürəkkəblə yazılmışdır.

Üzərində bir sıra təshih və əlavələr edilmişdir.

Tarixi qeyd edilməsə də tərcümeyi- halın 1950-ci illərin ortalarında, xüsusilə EA-da işlədiyi dövrdə yazıldığını ehtimal etmək olar.

Qeyd: S.Vurğunun 1938-ci ildə yazdığı 2 səhifəli bir tərcümeyi-halı (azərbaycanca, latın əlifbası ilə makina çapı), 1947-ci il və naməlum illərdə yazdığı 3 nüsxə tərcümeyi-halı da (rus dilində makina çapı-8 vərəq) həmin saxlama vahidində saxlanılır.

Başlanır: Я, Самед Вургун Юсиф оглу Векилов
родился в 1906 году в селение Салахлы
Казахского района…

Bitir: … В данное время работаю над большим
научным трудом Низами и мировая литература.

Ölçüsü: 23x34; həcmi: 2 vərəq, s.v. 225.

# XATİRƏLƏRİ

## Qardaş bolqarıstanda.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi: 06 oktyabr 1951.
Tək cizgili şagird dəftərinə bənövşəyi mürəkkəb və karandaş ilə yazılmış və təshih edilmişdir.
Məzmunu: 1951-ci ildə Sovet mədəniyyət xidmətlərinin nümayəndə heyəti ilə birlikdə Bolqarıstana səfərindən aldığı təəsüratıdır.
Başlanır: «Верую в единичную обшую силу рода человеческого на земном шаре творить добро…
Bitir:… Болгарии, полной поезии, возвошенных дум и стремлений
Ölçüsü: 17x21; həcmi: 2 şagird dəftəri, s.v.227.

## Из дневника моей жизни.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya dəftərə qaramtıl mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.
Məzmunu: həyatda necə yaşamaq qaydaları haq--qında özünün maraqlı fikirlərini izah edir.

Başlanır: Переживаемое нами время очень и очень сложное…
Bitir:… Речь не идет об истине в природе, которая здравствует независимо от воли человека!
Ölçüsü: 14x20; həcmi: 9 vərəq, s.v.231.

## «Muğan- Astraxanbazar» xatirələri.

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara makinada çap olunmuşdur. Oçerkin 10-cu vərəqi yenidən işlənmiş və bənövşəyi mürək-kəblə, müəllifin xətti ilə əlavə və düzəlişlər edilmişdir.
Məzmunu: Muğan düzünə, xüsusilə Astarxanbazar şəhərinə səyahətindən aldığı təəssüratdan ibarətdir.
Başlanır: Muğam! Muğam! Tarixlər şahidi, qocaman səhra!
Bitir: … Qəhrəman sovet xalqları, bütün qabaqcıl bəşəriyyət «Коmmunizm dastanı», «Lenin - Stalin dünyası adı vermişdir.
Ölçüsü: 21x30; həcmi: 13 vərəq, s.v. 228

## Об одном прекрасном человеке.

Avtoqraf.
Rus dilində
Ağ, saya vərəqlərin hər iki üzünə bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.
Yazılış tarixi qeyd edilməmişdirsə də ilk cümlələrindən məqalənin təxminən 1955-ci ildə yazıldığını söyləmək mümkündür.
Həmin qovluqda məqalənin 3 vərəqdən ibarət ma-

kinada çap olunmuş nüsxəsi də mühafizə olunur.

Məzmunu: Azərbaycanın ilk təyyarəçi qızlarından, hazırda Azərbaycan SSR ictimai təminat naziri Züleyxa Seyidməmmədova haqqında oçerk –xatirə.

Başlanır: Почти двадцать лет тому назад я познакомился лично с Зулейхи Сеид- Мамедовой

Bitir: ... Вот почему общественность Азербайджана так сильно любит Зулейху, свою родную, умную и гуманную дочь, доверяет ей судьбу тысячи наших добрых и заслуженных людей!

Ölçüsü: 20x29; həcmi: 5 vərəq, s.v. 229

## Xatirələr.

Rus dilində, makina çapı.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlarda çap olunmuşdur.

Xatirələrin üzərində RSFSR Dövlət nəşriyyatının 29 mart 1941-ci il tarixli təliqəsi vardır. Burada həmin xatirələrin nəşrdən əvvəl baxılmaq üçün müəllifə qaytarıldığından bəhs olunur və xahiş edilir ki, tez təshih olunub geri qaytarılsın.

Məzmunu: 1936-cı ildə Azərbaycan nümayəndələri ilə birlikdə Kremldə olmasından və dövlət və dövlət, partiya nümayəndələri ilə görüşün--dən bəhs edir.

Başlanır: Утром поезд отошел от станции Баку было больше шестидесяти человек.

Bitir: ... сколько силе и чувство было в этой руке.

Ölçüsü: 21x36; həcmi: 5 vərəq, s.v. 226

# ŞEİRLƏRİ

## Adsız qəhrəman[1].

Azərbaycan dilində, makina çapı.
15 noyabr, 1943, Böyük toqmaq kəndi.
Ağ saya vərəqlərə yazılmışdır.
Başlanır: Bu gün şəndir xəstəxana, baxışlarda bir sevinc var…
Bitir: … O müqəddəs qəbrinizə.
Ölçüsü: 20x28; həcmi: 4 vərəq, s.v. 3

1. S.Vurğun- əsərləri, C.2, Bakı 1960, səh. 148-150.

## Azad İlham[2].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

Səhifələr nömrələnməmişdir. Əlyazmasında tarix göstərilməsə də şerin 2 avqust 1936-cı ildə yazıldığı və həmin ildə «İnqilab və mədəniyyət» məcmuəsinin 11-12-ci nömrəsində çap edildiyi məlumdur.

Başlanır: Sən açıq alnınla, gülər yüzünlə…
Bitir: … çəkim günəşin keşigini bən.
Ölçüsü: 22x32; həcmi: 9 vərəq, s.v. 12.

## Свободное вдохновение.

Rus dilində.
Yazılış tarixi: 2 avqust, 1936, Novxanı kəndi.
Tək cizgili şagird dəftərinə qara mürəkkəblə əlilə yazılmışdır.
Mütərcimi: M.Muradlıdır.
Başlanır: О почтенный Сталин: О великий муж…
Bitir: … Перевел с тюркского М.Мурадлы.
Ölçüsü: 17x21; həcmi 1 dəftər, s.v.252

## Azərbaycan döyüşçülərinə.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Tək cizgili şagird dəftərinə bənövşəyi və qara mü-

---

2. S.Vurğun-Əsərləri, C. 1, Bakı, 1960, səh.231-236

rəkkəblə yazılmış və təshih edilmişdir.

Əlyazması şairin böyük məqaləsinin bir parçasıdır. Məqalənin daha geniş makina nüsxəsi də həmin saxlama vahidində mühafizə olunur. Makina nüsxəsinin birinci səhifəsi naqisdir. Ona görə də müstəqil təsvir olunmur. Makina nüsxəsində şairin əli ilə edilmiş qeydlər, çoxlu əlavələr və ixtisarlar vardır. 6 vərəqdən ibarətdir.

Məzmunu: Böyük Vətən müharibəsi cəbhələrində vuruşan azərbaycanlı gənclərə arxa cəbhədə qalan ana və bacıların, gəlinlərin köməyin- yazır və gənclərimizi faşizmə qarşı daha cəsarətlə vuruşmağa çağırır.

Başlanır: Siz bu gün böyük rus torpağını…

Bitir: … Bizim göz bəbəklərimiz, ürəyimizin taqəti olan qeyrətli balalarımız!

Ölçüsü: müxtəlif, həcmi: 5 vərəq, s.v.197.

## Azərbaycan himni.

Avtoqraf.

Azərbaycan dilində ərəb, latın və rus qrafikası ilə.

Yazılış tarixi qeyd edilməmişdir

Ağ saya kağızlara müxtəlif mürəkkəblə yazılmışdır.

Səhifələrdə müəllif tərəfindən xeyli təshihlər edilmişdir.

Müxtəlif variantlardan ibarətdir.

Himnin Azərbaycan və rus dillərində olan makina çapı 42-ci saxlama vahidində saxlanılır (38 vərəq).

Başlanır: Azərbaycan dünya görmüş bir diyardır…

Bitir: … Əzəl başdan and içmişdir torpağımız.

Ölçüsü: 21x27, həcmi: 78 vərəq, s.v. 41

## Anam gəlini.

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və bəzi təshihlər edilmişdir

Şeir Səməd Vurğunun indiyə qədərki mətbu əsərlərinə daxil edilməmişdir.

Başlanır: Başına dondigim anam gəlini…
Bitir: … Sən ilk qönçəsisən bizim gülşənin.
Ölçüsü: 19x41; həcmi: 2 vərəq, s.v.700.

## Ana heykəli[3].

Azərbaycan dilində.
Yazılış tarixi: mart, 1947.

Ağ, saya kağızlara makinada çap edilmişdir.

Başlanır: Mərmər abidələr, tökmə heykəllər,
Bəzəkdir hər böyük, kiçik şəhərə…
Bitir: … Berlinin azadlıq izdihamına
Elə bil heykəl də qoşulub gedir…
Ölçüsü: 21x30; həcmi: 2 vərəq, s.v.49.

## Asta-asta.[4]

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi: 26 yanvar 1953.

Tək cizgili şagird dəftərinə bənövşəyi mürəkkəblə yazılmış, təshih və əlavələr edilmişdir. Şeirin makinada çı-

---

3. S.Vurğun- əsərləri, c. 2, Bakı 1960, səh. 221/22.
4. S.Vurğun-əsərləri, C.2, Bakı 1950, səh. 286-287.

xarılmış 4 nüsxəsi də burada mühafizə edilir ki, onlardan üçünün üzərində şair öz xətti ilə bir sıra düzəliş və əlavələr etmişdir. Həmin şeir şairin əsərlərində «Belələri də var» adı ilə nəşr olunmuşdur. Əlyazması ilə çap variantları və «Əsərləri»ndəki parçalar arasında nüsxə fərqləri vardır.

Başlanır: Göz aldadan bir su kimi…

Bitir: … Üzə çıxar asta-asta.

Ölçüsü: 17x20; həcmi: 3 vərəq, s.v. 65.

## Axar çaylar.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara göy mürəkkəblə yazılmış və təshihlər edilmişdir. Həmin saxlama vahidi ilə cığara kağızına yazılmış 2-ci bir nüsxəsi də vardır.

Başlanır: Yaz gələndə daşıb gələr,…

Bitir: … Qeyli –qallı axar çaylar!

Ölçüsü: 19x27, həcmi 8 vərəq, s.v. 71.

## Bayraqdar [5] (ballada).

Avtoqraf.

Azərbaycan dilində

Yazılış tarixi: 1 sentyabr, 1943, Moskva.

Ağ saya kağızlar qara qarandaşla və bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

Bu qovluqda balladanın 10 vərəqdən ibarət makina çapıda mövcuddur.

Başlanır: O zaman ki insanların…

Bitir: … Dastan olub dildən-dilə

---

5. S.Vurğun-əsərləri, C.2, Bakı-1960. səh. 142-147.

gəzəcəkdin eldən-elə!
Ölçüsü: 21x30; həcmi: 11 vərəq, s.v. 91.

## Bahar və mən[6].

Avtoqraf.
Azərbaycan dilində ərəb əlifbası ilə.
Yazılış tarixi: 20 aprel, 1937.

Ağ, saya kağızlara qara qarandaşla yazılmışdır. 6 bənddən ibarət olan bu şeir şairin çap kitablarına eynilə daxil olmuşdur. Maraqlıdır ki, bir ildən sonra (26 aprel 1938-ci ildə) şair həmin şeirə bir daha qayıtmış, onu yenidən işləyib genişləndirmişdir. Və bu dəfə şeir 12 bənddən ibarət olmuşdur. Bu variant həmin tarixdə bənövşəyi mürəkkəblə, latın əlifbası ilə 3 ağ saya vərəqə yazılmışdır ki, bu yeni bəndlər şairin çap kitablarına daxil edilməmişdir. Bu variantın latın əlifbası ilə makinada çıxarılmış 3 vərəqlik bir nüsxəsi də burada mühafizə olunur.

Başlanır: Bahar nə xoş gəlir, ruhə dad verir…
Bitir: … Hər gülə, çiçəyə tazə ad verir.
Ölçüsü: müxtəlifdir, həcmi: 5 vərəq. s.v. 17.

## Bahar düşüncələr[7].

Azərbaycan dilində, makina çapı.
Yazılış tarixi: 1953-Bakı.

Ağ, saya kağızlarda çap olunmuşdur. Burada Şeirin sərlövhəsi qeyd edilməmişdir. Lakin «Bahar düşüncələri» adı S.Vurğunun «Əsərləri»nin II –cildindən götürülmüşdür. Burada həmin şerin 2 vərəqəlik natamam qaralama nüsxəsi

---

6. S.Vurğun-Əsərləri, C.1. Bakı 1960, səh. 269-270.

7. S.V.urğun-Əsərləri, C.2, Bakı-1960, səh. 284-285.

də vardır.
Başlanır: Bahar, sevgilimsən başdan-binadan…
Bitir: … Ətrindən qızıl gül kimi!
Ölçüsü: 20x29; həcmi: 7 vərəq, s.v.66

## Бессмертие.

Rus dilində, makina çapı.
Yazılış tarixi qeyd edilməmişdir.
Mütərcimləri: Abram Plavnik və İmran Seyidovdur.

Əsər ilk dəfə «Ölməz Stalin» adı ilə «Kommunist» qəzetinin 7 mart 1953-cü il tarixli nömrəsində çap olunmuşdur.

Başlanır: В первый раз у меня задрожала перо…
Bitir: … Озаряя я снопами лучей небосвод !
Ölçüsü: 21x27; həcmi: 3 vərəq, s.v.261.

## Bəstəkar [8].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Dama-dama şagird dəftərinə bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir. Şeirin üzərində tarix göstərilməmişdir. Lakin məlumdur ki, bu əsər 6 mart 1948-ci ildə yazılmış və «Kommunist» qəzetinin 7(III-48-ci il tarixli nömrəsində çap olunmuşdur. Əsər Azərbaycan Opera sənətinin banisi böyük bəstəkar Ü.Hacıbəyova ithaf olunmuşdur.

Başlanır: Böyükdür insanın eşqi, ürəgi…
Bitir:… Günəşlə bir yerdə gedir sabaha.
Ölçüsü: 14x20; həcmi: 6 vərəq, s.v.53.

---

8. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh. 227-229.

## Bizim dağlar[9].

Avtoqraf.
Azərbaycan dilində, kiril əlifbası ilə.
Yazılış tarixi: 15 fevral, 1943.

Ağ, saya kağızlara qaramtul mürəkkəblə yazılmış və heç bir təshih aparılmamışdır.

Şeir, kitabda «Dağlar» adı ilə getmişdir. Əlyazmasının sonunda müəllifin əli ilə «1943»-cü il yazıldığı halda, kitabda bu şeir 1942-ci il şeirləri sırasına daxil edilmişdir.

Başlanır: Binələri çadır-çadır,
çox gəzmişəm özüm dağlar!...
Bitir: ... Vurğunu da salar yada,
Düz ilqarlı bizim dağlar.
Ölçüsü: 20x28; həcmi: 1 vərəq, s.v. 33.

## Bizim gəncliyə[10].

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara makinada çap olunmuşdur.

Başlanır: Bizim gənclik bəsləmişdir,
böyütmüşdür aslanları…
Bitir:… götrüm düşən öküz kimi samanlıqda
yeyib yatar.
Ölçüsü: 20x28; həcmi: 4 vərəq, s.v.21.

## Buruqlar səltənəti.

---

9. S.Vurğun-Əsərləri, C.2, Bakı 1960. səh.125.
10. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh, 35-37.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara qaramtul mürəkkəblə yazılmış və təshih edilmişdir.
«Bakının dastanı» poemasından bir hissə olan bu parça müstəqil işlənmiş variantlardan biridir. [11]
Başlanır: Ah, nə deyim, nə ad verim bu aləmdə
mən sənə?...
Bitir: … Mən görürəm al səhərin camalında!...
Ölçüsü: 20x29; həcmi: 26 vərəq, s.v. 106.

## Bütün xalqlar, qəbilələr od içindən çıxacaqdır[12].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi: iyun, 1941.
Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də bir sıra düzəlişlər edilmişdir.
Şeirin adı əlyazmasında «Dar ağacı» yazılmış, lakin sonradan xətt çəkilərək pozulmuşdur. Göstərdiyimiz ad isə S.Vurğunun 1960-cı ildə çap olunmuş əsərlərindən götürülmüşdür.
Çap ilə əlyazması müqayisə edilərkən belə məlum oldu ki, əlyazmasından 12 sətr çapa düşməmişdir. (orta hissədən)
Əlyazmasında, «macar» işləndiyi halda çapa «bolqar» getmişdir.
Əlyazmasında deyir:
Mənəm macar qızı, Macarıstan vətənimdir.
Çapda deyir:

---

11. S.Vurğun-Əsərləri, C.3, Bakı-1961, səh. 335.
12. S.Vurğun-Əsərləri, C.2; Bakı-1960, səh.96-97.

Mənəm bolqar qızı, Bolqarıstan vətənimdir.

Başlanır: Avropanın küçələri qaranlıqdır yerdən göyə…

Bitir: … Stalinin mərd əlini dönə-dönə sıxacaqdır.

Ölçüsü: 19x31; həcmi: 4 vərəq, s.v.26.

## Вессение размышления.

Rus dilində, makina çapı.

Yazılış tarixi qeyd edilməmişdir.

Mütərcimi: C.Məmmədovdur.

İlk dəfə «Bahar düşüncələri» adı ilə «Azərbaycan gəncləri» qəzetinin 1 may 1953-cü il nömrəsində çap olunmuşdur.

Başlanır: Весна! Ты желанная (любимая) моя издавна) с самого начала …

Bitir: … От поколения к поколению обновляясь…

Ölçüsü: 21x29, həcmi: 3 vərəq, s.v. 260.

## Qəzəl.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi: 20 fevral, 1943.

Ağ, saya kağıza qaramtul mürəkkəblə yazılmışdır.

Vərəqin yuxarıdan sol küncündə qəzəlin Azərbaycan SSR Xalq artisti, xanəndə Xan Şuşinskiyə həsr olunduğu qeyd edilmişdir. Buradaca qəzəlin həmin tarixdə köçürülmüş makina çapı mühafizə olunur.

Başlanır: Ey könül min namə yaz bir gülüzarın eşqinə…

Bitir: … Mehri ülfətdən yaranmış bir diyarın eşqinə.

Ölçüsü: 20x29, həcmi: 2 vərəq, s.v. 34

## Qəhrəmanın ölümü[13].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi: 2 fevral, 1945.

Ağ, saya kağızlara qara və qaramtul mürəkkəblə yazılmış və təshih edilmişdir.

Başlanır: Ağır dağlar fikirdədir… quşlar sakit, sular lal…
Bitir: … Yerdə insan nəfəs alır qəhrəmana eşq deyə…
Ölçüsü: 20x30, həcmi: 2 vərəq, s.v. 47.

## Qoca fəhlənin çıxışı[14].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi: 26 iyun, 1941.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir. Şeir kitabda «Qoca qəhrəmanın çıxışı» adı ilə getmişdir.

Başlanır: Bir şir kibi sinə gərdi o danışıq kürsüsünə…
Bitir: … O hünəri öz alnına ulduzlarla yazar göglər.
Ölçüsü: 19x31, həcmi: 2 vərəq, s.v. 27.

## Dörd söz[15].

---

13. S.Vurğun-Əsərləri, II-cild, Bakı 1960, səh. 187-188.
14. S.Vurğun- Əsərləri, C.2, Bakı-1960, səh.73-74.
15. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh.167-169.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi: yanvar, 1944. Moskva.

Ağ, saya vərəqlərə qaramtul mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshihlər edilmişdir.

Şair əvvəlcə şerin adını «Zəfər» qoymuş, sonra bu adı pozub sağdan başqa mürəkkəblə «Dörd söz» sərlövhəsini yazmışdır.

Eyni şifr altında əsərin 5 səhifədən ibarət makina nüsxəsi də mühafizə olunur.

Başlanır: İnsan övladının asıman qədər…
Bitir: … Oyansın səhərlər zəfər sinəsindən !
Ölçüsü: 21x27, həcmi: 7 vərəq, s.v. 45.

## Düşüncələr [16].

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağıza makinada çap olunmuşdur.

Başlanır: Gah olur ki, ovçu könlüm, dağlar
aşaraq…
Bitir: … Bir kainat bir ürəyə sığışa bilməz.
Ölçüsü: 21x31, həcmi: 7 vərəq, s.v. 55.

## Eduard Maze[17].

Azərbaycan dilində.
Yazılış tarixi: 22 aprel, 1950.

Ağ, saya kağızlara makinada çap olunmuşdur.

16. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh.235-237.
17. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh.249-251.

Başlanır: Ayağa qalxmışdır Brest şəhəri,…
Bitir: … Bizim bu qəhrəman, adi fəhlədir!
Ölçüsü: 20 x29, həcmi: 4 vərəq, s.v. 60

## Eşq olsun sənətkara[18].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi: 23 noyabr, 1943.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshih olunmuşdur.

İki nüsxədən ibarətdir. İkinci nüsxə bir qədər naqisdir.

Başlanır: Bir qocaman qartalın qanadları
dayandı…
Bitir: … çünki vidalaşıram bir ürək sirdaşımla.
Ölçüsü: 21x30, həcmi: 3 vərəq, s.v. 52.

## Zəfər[19].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ saya, kağızlara bənövşəyi mürəkkəblə yazılmış, təshihlər edilmiş, birinci səhifə hətta 2 dəfə yazılmışdır.

S.Vurğun şeiri əvvəl «Qalibiyyət» adlandırmış, sonra buraya sağdan «Yaxud Zəfər» sözlərini əlavə etmişdir. Sonralar həmin şeirin kitabda «söz» adlı başqa bir variantı nəşr olunmuşdur ki, axırına «1944» tarixi qoyulmuşdur. Lakin şeirin arxasındakı bir qeyddən aydın olur ki, bu variant 1943-cü ilin əvvəllərində yazıla bilərdi,

---

18. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh.230-231.
19. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh. 167-169.

çünki qara qarandaşla edilmiş bu qeyd şairin kiçik mənzum parçasıdır. 1943-cü ilin qışında xalqımızın ağır günlərində - 11 fevral, 1943-cü ildə Salski stansiyasında vaqonda böyük bir uzaqgörənlik və zəfərə inamla yazmışdır:

Sərçələr bom-bozdur, ağaclar, çılpaq,
Budaqda qalmamış bir yaşıl yarpaq.
Pərişan olsa da bu qara torpaq,
Qabaqdan al geyib ilk bahar gəlir.

Başlanır: İnsan övladının asıman qədər…
Bitir: … Yaşasın vətən ki…
Ölçüsü: 20x29; həcmi: 8 vərəq, s.v. 74.

## Zəfər təranəsi.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ saya vərəqlərə qaramtul mürəkkəblə yazılmış və təshih edilmişdir.

Əlyazmasının sonunda tarix göstərilməsə də Böyük Vətən müharibəsinin son aylarında yazıldığını təxmin etmək olar.

«Zəfər təranəsi» şeiri şairin çap kitablarına daxil edilməmişdir.

Məzmunu: Sovet Ordusunun qazandığı qələbəyə alqış və iftixar hissi ifadə edir.
Başlanır: Alay-alay, qoşun-qoşun yürüdükcə mənim ordum…
Bitir: … Qərinələr bizdən sonra şeir kimi oxuyacaq!
Ölçüsü: 21x30; həcmi: 5 vərəq, s.v. 73.

## 20 Bahar [20].

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.
Əlyazması 1940-cı ildə yazılmış «20 bahar» poemasının nüsxələrindən biridir. Əvvəldən proloq, sonra isə «Əks səda» hissəsinin bir bəndi və epiloqu naqisdir.
Başlanır: Bakı pəncərəsi açıq bir bina…
Bitir: …  Yenə boşdur ambarımız.
Ölçüsü:  20x30; həcmi: 9 vərəq, s.v. 25.

## İlk bahar və mən[21].

Avtoqraf.
Azərbaycan dilində, müasir əlifba ilə.
Yazılış tarix: 13 aprel, 1944.
Ağ, saya vərəqlərə qaramtul mürəkkəblə yazılmışdır.
2 nüsxədən ibarətdir. Üzərində müəllif tərəfindən eyni mürəkkəblə bir sıra təshihlər aparılmışdır.
Əlyazmasında 3-cü bəndin son misrası «Yanlızlıqda» sözü ilə başlamış, kitabda isə bu söz «ucalmaqda» şəklində getmişdir. Bundan başqa əlyazmasında olan aşağıdakı dörd misra kitaba düşməmişdir. 4 misra:

«Bahar! Bahar! Müqəddəsdir o sadə camalın!
Sənin gözəl fitrətində yoxdur yamanlıq.
Möhtəşəm bir aynasısan hüsnün, kamalın,
Bu kamala yetişsəydi ömrüm bir anlıq.

---

20. S.Vurğun-Əsərləri, C.2 Bakı-1960, səh.55-61.
21. S.Vurğun-Əsərləri. C.2. Bakı-1960, səh. 170-173.

Şeir M.Arif yoldaşa ithaf edilmişdir.
Başlanır: Mənə yaşıl don geyinmiş çəmənlər gülür…
Bitir: … Bir əbədi qardaş olduq ilk bahar və məni!
Ölçüsü: 20x29; həcmi: 11 vərəq, 2 nüsxə, s.v.43.

## İslam (ballada)[22].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Kitabda 1950-ci ildə yazılmış şeirlər sırasına daxil edilmişdir.

Şeirin qurtardığı vərəqdə şairin Avropa xatirələri silsiləsinə daxil olan əsərlərinin siyahısı yazılmışdır. (vər.14). Dəftərin 15-17-ci vərəqlərində isə «İllər və rəqəmlər» şeiri yazılmışdır. Bu şeir də avtoqrafdır. Yazılış tarixi göstərilməmiş, şairin xətti ilə təshihlər edilmişdir.

Başlanır: Oder çayı dolanmışdır gümüşü bir kəmər kimi….
Bitir: … İnsan əllərinin şeyriyyətidir.
Ölçüsü: 20x28; həcmi: 14 vərəq, s.v. 91.

## İstiqbal təranəsi[23].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi: 5 oktyabr, 1944.

Ağ, saya vərəqlərə müxtəlif mürəkkəblə yazılmış və

22. S.Vurğun Əsərləri, C.2, Bakı-1960, səh. 268-273.
23. S.Vurğun-Əsərləri, C.2. Bakı-1960, səh.180-182.

təshih edilmişdir. Şeirin 5 vərəqlik makina nüsxəsi də həmin qovluqda mövcuddur.

Əlyazması ortadan və sondan naqisdir, belə ki, vərəq çatmır.

Bütün zəncirlərin hökmü hünərlə parçalanmışdır misrasından sonra:

Zamanın şanlı övladı qılınc taxmış bu imanla
misrasına kimi, sonda isə:

Bütün insanlıq al geymiş, keçir ömrün baharından
misrasından:

Günəş tək nura qərq olmuş bütün xilqət
misrasına kimi naqisdir.
Ölçüsü: 19x30; həcmi: 8 vərəq, s.v. 44.

## «Я не спешу» «Телогрейка» «поет как рано постарел ты».

Rus dilində, makina çapı.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara çap olunmuşdur. 1 vərəqin yuxarı hissəsində və ayrıca kağızda K.Simonov və A.Yu.Kriviçkinin S.Vurğuna kiçik məktubları vardır. Məktublar 8,13 yanvar 1956-cı ildə yazılmışdır. Şerlərinin tərcüməsi haqqındadır.

Başlanır: Все звездах небо, о моря дует ветер…

Bitir: … Поет как рано постарел ты!

Ölçüsü: 20x28; həcmi: 5 vərəq, s.v. 259.

## Единственное яйцо рябой курочки никчемны человек, карьерист.

Rus dilində, makina çapı.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara çap edilmişdir.

Tərcüməçi: Vadim Sikorskidir.
Başlanır: Мой читатель, признавась тебе не так…
Bitir: … По всторону тебя смести у нас достанот сил!
Ölçüsü: 21x29; həcmi: 12 vərəq, s.v. 254.

## Kamala yetmək.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Tək cizgili şagird dəftərinə qara və bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblərlə də müəllif tərəfindən təshihlər edilmişdir.

Şeir nədənsə şairin çap olunmuş əsərləri sırasına daxil edilməmişdir.

Başlanır: Gəl ana torpağım! gəl məni dinlə.
Bitir:… Həyat bir qalıba sığışa bilməz…
Ölçüsü: 16x20; həcmi: 1 dəftər, s.v. 75.

## Klim Voroşilov yoldaşa[24].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi: 27 fevral, 1935, Bakı.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshih olunmuşdur.

Kitabda həmin şerin tarixi 1936 cı il kimi getmişdir. Lakin şeirin sonunda şairin öz əli ilə yazdığı tarixdən aydın olur ki, bu şeir 1936-cı il deyil, məhz 1935-ci ilin fevralında yazılmışdır.

Başlanır: Şairlər oylağı bu əziz vətən…

---

24.. S.Vurğun-Əsərləri, C.1, Bakı-1960, səh.224-226.

Bitir: … Salam! marşalımız Klim yoldaşa.
Ölçüsü: 19x41; həcmi: 3 vərəq, s.v. 8.

## Körpünün həsrəti[25].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi: 23 oktyabr, 1948.
Tək cizgili tələbə dəftərinə bənövşəyi mürəkkəblə yazılmış və müəllif tərəfindən həmin mürəkkəblə də təshih edilmişdir.
Başlanır: Araz qırağında dayandı qatar…
Bitir: … fəqət nə gələn var, nə də bir gedən.
Ölçüsü: 16x20. həcmi: 1 dəftər, s.v. 52

## Gələcəyin toy bayramı[26].

Azərbaycan dilində, makina çapı.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara makinada çap edilmiş və üzərində təshihlər aparılmışdır.
Şeirin 4 vərəqlik makinada çıxarılmış bir variantı da həmin saxlama vahidi altında mühafizə olunur.
Başlanır: Bu gün sabah al geyəcək yüzüncü il baharı.
Bitir: … Azərbaycan torpağının dərya boyda kamal ilə.
Ölçüsü: 20x25; həcmi: 7 vərəq, s.v. 39.

## Leyla.

25. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960. səh.224-234.
26. S.Vurğun-Əsərləri. C.2, Bakı-1960. səh. 163-1966.

Rus dilində makina çapı.
Yazılış tarixi: 1935, Bakı.
Mütərcimi: Николай Веренскойе.
Ağ, saya kağızlara çap olunmuşdur
Başlanır: То имя известие поетым давно скорбь имении…
Bitir: … Монжет течение мира…
Məzmunu: İlk təyyarəçi qız Leyla Məmmədbəyovaya ithaf olunmuşdur.
Qeyd: Şeir rusca ayrıca kitabça şəklində çap edilmək üçün hazırlanmış surətdir. Bunu titul vərəqi və qeydlər də bildirir.
Ölçüsü: 21x29; həcmi: 4 vərəq, s.v. 251.

## Lirik şerlər.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara müxtəlif mürəkkəb və qarandaşla yazılmışdır. Buraya şairin aşağıdakı şeirləri daxildir.

1. Ləzgi qızı 28 oktyabr, 1939, Quba.
2. Samur çayı
3. Ey könül… (qəzəl)
4. Göyərçin və s.

Başlanır: Ətəyini çəkməyərək…
Bitir: … Qaldı ayaq izlərimiz.
Ölçüsü: Müxtəlifdir, həcmi: 2 dəftər, s.v. 22.

## Матери.

Rus dilində.
Yazılış tarixi: 1929, Moskva.
Ağ, saya kağızlara makinada çap olunmuşdur.

Başlanır: Говорят опять ты каждое утро в каждый вечер…
Bitir:… Скоро я вернусь в родные края.
Ölçüsü: 21x31; həcmi: 2 vərəq, s.v. 249.

## Напев.

Rus dilində əlyazması.
Yazılış tarixi: may, 1936.
Tək cizgili kağıza bənövşəyi mürəkkəblə yazılmışdır.
Sətraltı tərcümədir. Mütərcimin adı qeyd edilməmişdir. Üzərində təshihlər aparılmışdır.
Azərbaycanca variantı «Təranə» adı ilə 1936-cı ildə yazılmışdır.
Başlanır: Милая! жизнь человека коротка…
Bitir: … Давай выйдем и приветстувием к нашему народу.
Ölçüsü: 22x35; həcmi: 1 vərəq, s.v. 253.

## Reyxstaq[27].

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara makinada çap olunmuşdur.
Başlanır: Zabit nişan verir! Budur Reystaq!
Bitir: … Deyir seyr etdiyim bu miskin səhnə
Ölçüsü: 21x29; həcmi: 2 vərəq, s.v. 51.

## Rus qışı.

Avtoqraf.
Azərbaycan dilində.

---

27. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh. 219-220.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağıza bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Başlanır: Sən ağ saçlı bir qızısan dünya görmüş bir kişi…

Bitir: … Şairlər də ilham almış bu ağ saçlı gözəldən.

Ölçüsü: 27x34; həcmi: 1+1 vərəq, s.v. 77.

## Salam dostum[28].

Avtoqraf.

Yazılış tarixi: 26 mart, 1943.

Azərbaycan dilində.

Tək cizgili şagird dəftərinə bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

Əlyazmasında şeirin sərlövhə «Sizi təbrik edirəm» olmuş, daha sonra müəllif bunu dəyişərək, avtoqrafda xırda düzəlişlər etdiyi qaramtul mürəkkəblə köhnə sərlövhənin üzərindən «Salam dostum!» başlığını yazmışdır. Şer akademik M.Topçubaşevin Dövlət mükafatı laureatı adı alması münasibətilə yazılmışdır.

Başlanır: Nə qədər şirindir ömrün günləri…

Bitir: … Gül açsın daima saf məhəbbətin!

Ölçüsü: 17x20; həcmi: 4 vərəq, s.v. 36.

## Samur çayı.

Avtoqraf.

Azərbaycan dilində, latın əlifbası ilə.

Yazılış tarixi: 3 noyabr, 1939, Quba-Bakı.

Ağ, saya vərəqlərə bənövşəyi mürəkkəblə yazılmışdır.

---

28. S.Vurğun-Əsərləri, C.2, Bakı-1961. səh. 133-135.

Əlyazmanın üzərində bir sıra təshihlər edilmişdir.

Samur-Dəvəçi kanalının çəkilişindən bəhs edən bu şeirin tam və naqis 2 variantı mövcuddur. Maraqlıdır ki, bu şeirlərin, şairin 1960-cı ildə çap edilmiş «Əsərləri»nin II-cildinə daxil edilmiş «Samur çayı» şerinə heç bir bənzəri yoxdur. Halbu ki, şerlərin hər ikisi 1939-cu ildə yazılmışdır. Əlyazmanın rus dilinə tərcüməçi həmin arxivdə s.v.255 şifri ilə mühafizə olunur.

Başlanır:Bizim Qafqaz dağlarından şırıl-şırıl süzülən…

Bitir: … Bu azadlıq, bu səadət, bu gözəllik dünyası.

Ölçüsü: 22x30; həcmi: 5 vərəq, s.v. 22.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi: 1938-1945.

Müxtəlif kağızlara müxtəlif mürəkkəblə ərəb, latın və müasir əlifba ilə yazılmışdır.

Şerlərin üzərində müəllif tərəfindən bir sıra təshihlər edilmişdir.

Burada aşağıdakı şeirlər vardır:

1. Çil toyuğun tək yumurtası- 8 fevral 1938.
2. Mıs-mıs - 5 iyun, 1941.
3. Sən utan - 1 noyabr, 1939.
4. Ah, bəxillər!- 24 fevral, 1945.
5. Mefistofel –tarixi göstərilməyənlər.
6. Xeyrə-şərə yaramaz.
7. Asta-asta.
8. Velmoka.
9. Olsun
10. Müxənnəd- (2 nüsxə)

Bundan başqa bir sıra naqis və pərakəndə satirik parçalar da vardır.

Ölçüsü: 21x30; həcmi: 54 vərəq, s.v. 20, 28.

## Sevgi[29].

Azərbaycan dilində, makina çapı.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara latın əlifbası ilə çap olunmuşdur. Buraya şairin «Sevgi», «Sevirəm», «Bəzək və zinət» və «Anamın dərdi» şeirləri daxildir. Axırıncı şeirin sonundan 6 misra çatmır. Bir sıra əlamətlərinə görə bu şeirlər kitab halında çap edilmək üçün hazırlanan nüsxələrdən biridir. Üzərlərində tarix göstərilməsə də bu şeirlərin 1934-cü ildə yazıldığı məlumdur.

Başlanır: Yenə də ruhumu gəzdi bir duyğu…
Bitir: … Gedib, qonşuları gəzərdi hər gün.
Ölçüsü: 22x32; həcmi: 9 vərəq, s.v. 5.

## Səadət nəğməsi[30].

Azərbaycan dilində
Yazılış tarixi: yanvar, 1937.

Ağ, saya kağızlara makinada çap olunmuş və təshih aparılmışdır.

Başlanır: Baxın, səhərlərin yaqut rənginə…
Bitir: … Söyləyirəm: yaşa! getse! yaşa!
Ölçüsü: 21x30; həcmi: 5 vərəq, s.v. 14.

## Sərhəd qəhrəmanına şer hədiyyəsi.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

---

29.. S.Vurğun-Əsərləri, C.2, Bakı, 1960. səh. 160-165.
30. S.Vurğun- Əsərləri C.1, Bakı-1960, səh. 251-253.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Başlanır: Boy atdın ormanlar qucağında sən…

Bitir: … Bizdə vətən də var, qəhrəman da var!

Ölçüsü: 22x32, həcmi: 3 vərəq, s.v. 78

## Sovet himni.

Avtoqraf.

Azərbaycan və rus dillərində.

Yazılış tarixi: 1943.

Ağ, saya kağızlara müxtəlif mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir. İçərisində bir qeyd-məktub vardır ki, tarixi buradan alınmışdır. Bunlar himnin müxtəlif variantlarından ibarətdir.

Bəzi avtoqraf səhifələrinin arxasına makina ilə həmin şeirin mətni də çap olunmuşdur.

Bəzi nüsxələr S.Vurğunun xəttinə oxşasa da bir nüsxə onun xətti deyildir. Təmiz köçürülmüş nüsxələrdən birinin altında isə mütərcimləri: M.Qalodnıy və A.Plavnikdir yazılmışdır.

Himnin Azərbaycan və rus dillərində makina nüsxələri həmin arxivdə s.v. mühafizə olunur ki, bunların bəzisinin altında mütərcimin Adalis olduğu yazılmışdır s.v.38.

32 vərəqdən ibarət olan bu makina çapı və rəqəmlərinin bəzilərinin üzərində və arxasında müəllif və ya mütərcimlərin əli ilə müxtəlif düzəlişlər edilmişdir.

Vərəqlər S.Mixalkov və L.Registanın rusca çap olunmuş «Союз нерушимый Республик Свободных» şerinin bir vərəqinə bükülmüşdür.

Başlanır: Страна совета –родина побед
Наше знамя алее роз…

Bitir: … Нет у нас
Наше советская земля.

Ölçüsü: müxtəlifdir. həcmi: 23 vərəq, s.v. 37

## Sözün şöhrəti[31].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi: 28 avqust, 1944.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və xırda təshihlər edilmişdir.

Başlanır: Sözün şöhrəti…
Bitir: … Vətən andım, vətən eşqim, vətən mülkündə var olsun.
Ölçüsü: 20x 29; həcmi: 5 vərəq, s.v. 45.

## Stalinin qanunları[32].

Avtoqraf.
Azərbaycan dilində, latın əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

S.Vurğunun 1960-cı ildə çap olunmuş «Əsərləri»ndə şeirin adı «Böyük bir kitab var bizim həyatda» getmişdir.

Əlyazma ilə çap müqayisə olunduqda məlum olur ki, çapdakı şerlərdə bir sıra düzəlişlər edilmişdir, hətta cümlələr dəyişilmişdir.

Əlyazma yarımçıqdır, 10 bənd çatmır.
Başlanır: Kim bilir, neçədir tarixin yaşı?...
Bitir: … Kimindən məst oldu piyanlar kimi.
Ölçüsü: 21x30; həcmi: 14 vərəq, s.v. 79.

---

31. S.Vurğun- Əsərləri, C.2, Bakı-1960. səh.
32. S.Vurğun-Əsərləri, C.2. Bakı-1960, səh. 28-34.

## Sümbül.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

Vətənin inkişafı üçün bolluğun zərurəti haqqında yazılmış mənzumədir.

Başlanır: Sümbülüm, sümbülüm sarı sümbülüm…
Bitir: … Birinci … ikinci siçan.
Ölçüsü: 22x32; həcmi: 6 vərəq, s.v. 15.

## Təbriz gözəlinə[33].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi: 13 dekabr, 1935, Bakı

Ağ saya kağızlara bənövşəyi mürəkkəblə yazılmışdır.

Başlanır: …fikir vermə danışıqlara…
Bitir: … Qonaq gələcəyəm qızıl Təbrizə.
Ölçüsü: 21x41; həcmi: 4 vərəq, s.v. 10.

## Ukrayna partizanları[34].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi: 30 yanvar, 1942, Moskva.

Ağ, saya vərəqin hər iki səhifəsinə bənövşəyi mürəkkəblə yazılmışdır. Əlyazmasının Mixail Svetlov tə-

---

33. S.Vurğun-Əsərləri, C.1, Bakı-1960. səh. 208-210.
34. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh.106-107.

rəfindən rusca tərcümə olunmuş 2 səhifəlik makina çapı nüsxəsi də vardır.

Başlanır: De kimdir gecənin bağrını dələn?...

Bitir: … Bizim ukraynalı partizanlardır!

Ölçüsü: 27x34; həcmi: 1 vərəq, s.v. 31.

## Ürək[35].

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi: 20 dekabr, 1943.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

Başlanır: Bir saf pəri kimi cilvələnərək…

Bitir: … Quru bir taxtanı simsiz çalacaq.

Ölçüsü: 20x30; həcmi: 14 vərəq, s.v. 40.

## Çinarın şikayəti[36].

Avtoqraf.

Azərbaycan dilində ərəb və latın əlifbası ilə.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmışdır.

Kitabda 1936-cı il şerlərinin sırasında gedir.

Əlyazmasının birinci səhifəsində qeyd latın əlifbası ilə mətni isə ərəb əlifbası ilə yazılmış, eyni mürəkkəblə təshih edilmişdir.

Başlanır: Dindi yol üstündə qoca bir çinar…

Bitir: … Nə insan…, nə də haqqı var.

---

35. S.Vurğun-Əsərləri, C.2, Bakı-1960, səh.155-161.
36. S.Vurğun-Əsərləri. C.1. Bakı-1960, səh.247-248.

Ölçüsü: 22x32; həcmi: 6 vərəq, s.v.13.

## Şair, nə tez qocaldın sən![37].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Tək cizgili dəftərinə müxtəlif mürəkkəblərlə yazılmış və təshih olunmuşdur. Ardınca, şairin natamam bir satirik şeiri də yazılmışdır.

Başlanır: Şair olan qəm də yeyir…
Bitir: … Şair nə tez qocaldın sən!
Ölçüsü: 17x21; həcmi: 1 dəftər, s.v. 68.

## Şeirlər.

Avtoqraf.
Azərbaycan dilində, ərəb, latın və kiril əlifbası ilə.
Yazılış tarixləri: 1934-1955.

Müxtəlif ağ, saya vərəqlərə və şagird dəftərlərinə bənövşəyi mürəkkəblə yazılmışdır.

Bəzi şeirlərin üzərində müəllif tərəfindən təshihlər aparılmışdır. Şeirlərin üzərində tarix göstərilməmişsə də, tərəfimizdən bu tarixlər S.Vurğunun 1960-63-cü illərdə çap olunmuş «Əsərləri»nin 1 və II-cildlərindən tapılıb xronoloji qaydada düzulmüşdür.

Şeirlər aşağıdakılardır:

1. Qafqaz – 1934.
2. Stalin - 1935.
3. At - 1935.
4. «Azərbaycan (İki variant)- 1935.

---

37. S.Vurğun-Əsərləri, C.2, Bakı, 1960, səh. 288.

5. həsrət - 1935.
6. Şikəstə şairə cavab - 1936.
7. Aşıq qardaşıma - 1938.
8. Bayatılarım. (Kitabda «Sədaqət» adı ilə çap olunmuşdur)- 1938.
9. Böyük bir kitab var bizim həyatda – 1938.
10. Kommunist – 1939.
11. Moskva - 1941.
12. Bizim dağlar - 1942.
13. Göyərcin – 1943.
14. Gələcəyin toy bayramı – 1943.
15. Göz aydınlığı – 1943.
16. Təzə il sovqatı - 1944.
17. Zəfər bayrağı – 1945.
18. Körpünün həsrəti - 1948.
19. Dostluq hədiyyəti – 1955.

Ölçüsü: müxtəlifdir; həcmi: 54 vərəq, s.v. 6.

## Yenə[38].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi: mart, 1947.

Ağ, saya dəftərlərə bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih olunmuşdur. Buraya əsasən şairin «Avropa xatirələri» seriyasından olan aşağıdakı şeirləri daxildir.

1. Yer həsrəti.
2. Təyyarə meydanı.
3. Berlin.
4. London qarısı.

---

38. S.Vurğun-Əsərləri, C.2. Bakı-1960, səh.214-218, 266-277, 263-268.

5. «Marksın qəbri üstündə və İslam haqqında ballada»nın başlanğıcı.

Bütün bunlardan sonra II dəftərin sonunda əsərlərinin ruscaya çevrilməsi haqqında Azərbaycan SSR MK-ya yazdığı bir məktubun qaralaması da vardır. (Dəftər №2, vərəq 12-15).

Ölçüsü: 13x20; həcmi: 34 vərəq, s.v. 59.

## Yenə.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi: mart 1947, Berlin.

Dama-dama dəftər kağızlarına bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir. Dəftərdə şairin «Avropa xatirələri» seriyasından olan aşağıdakı şeirləri vardır:

1. Rəssamın son əsəri.
2. Ziyafət.
3. Reyxstax.
4. Ana heykəli.
5. Alman bənnası və Sovet zabiti.

Ölçüsü: 15x20; həcmi: 1 bloknot, s.v. 58.

## Yenə.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi: 30 matr, 1950.

Tək cizgili ümumi dəftərə müxtəlif mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih aparılmışdır.

Başlanır: Təyyarəmiz qartal kimi göyə qalxdı…

Bitir: … Günəş manat kimi cibə sığarmı?

Məzmunu: Şairin «Avropa xatirələri» meriyasından

«Yer həsrəti», «Təyyarə meydanı»,«Berlin» şeirlərinin variantlarından biri və bu seriya-variantlarından biri və bu seriyaya daxil olmayan «Kiçik şəhər», «Kitab» şeirlərinin variantlarıdır.

Ölçüsü: 17x20; həcmi: 1 dəftər, s.v. 61.

## Yenə.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi: 12 sentyabr, 1951.

Tək cizgili ümumi dəftərə bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Məzmunu: Bolqarıstana həsr edilmişdir.

Başlanır: Yam-yaşıl Bolqar göylərini qartal kimi dolaşan,…

Bitir: … İşıq bol, hava şəffafdır!

Ölçüsü: 17x20; həcmi: 1 dəftər, s.v. 62.

## Yenə.

Avtoqraf.

Azərbaycan dilində ərəb, latın və kiril əlifbası ilə.

Yazılış tarixləri müxtəlifdir.

Müxtəlif formatlı ağ, saya kağızlara müxtəlif rəngli mürəkkəblə yazılmışdır.

Bu şeirlərin sərlövhəsi və tarixi S.Vurğunun 1961-1963-cü illərdə nəşr edilmiş əsərləri ilə yoxlanılaraq dürüstləşdirilmişdir. Bu s.v. altında şairin aşağıdakı şeirləri mühafizə olunur:

1. Vətən həsrəti – 1929.

2. Bahar - 1933.
3. Böyük ədib – 1934.
4. Sabahın türküsü – 1934.
5. Vətən ordusu – 1934.
6. Əhli- qələm – 1935.
7. Günəşin keşiyində – 1936.
8. Cambul – 1936.
9. Azad ilham – 1936.
10. Ölüm xəbərçilərinə – 1937.
11. Bülbül və bağban – 1937.
12. Rəhbərin vətəni – 1937.
13. Atamız Stalin – 1937.
14. Şerimizin ağsaqqalı – 1937.
15. Xalq düşmənlərinə – 1937.
16. Dargöz - 1937.
17. Sədaqət - 1938.
18. Xeyrə –şərə yaramaz – 1938.
19. Mavzoley – 1938.
20. Ləzgi qızı – 1939.
21. Bizim gəncliyə – 1939.
22. Təzə il – 1940.
23. 20 Bahar – 1940.
24. Yaşamaq şirindir, həyat gözəldir, - 1941.
25. Şam – 1941.
26. Pionerin andı – 1941.
27. Uşaq baxçası – 1941.
28. Mənim körpə tərlanım – 1941.
29. Vətənin keşiyində – 1941.
30. Rəhbərin çağırışı – 1941.
31. Şərçi – 1941.
32. Moskva – 1941.
33. Qəhrəmanın hünəri - 1941.
34. Ananın öyüdü – 1941.
35. Atamız, sərkərdəmiz – 1941.
36. Sənəm qarının pıçıltıları – 1941.

37. Həyat fəlsəfəsi – 1942.
38. İsrafil Məmmədov – 1942.
39. Gələcəyin toy- bayramı – 1943.
40. İstiqbal təranəsi – 1944.
41. Təzə il sovqatı – 1944.
42. Mənzum məktub- 1944.
43. Sözün şöhrəti – 1944.
44. Qərinədən- qərinəyə – 1945.
45. Qızıl ordu – 1945.
46. Mənim səsim – 1946.
47. Yandırılan kitablar – 1947.
48. Bəstəkar – 1948.
49. Məhəbbət ilhama çağırır məni – 1948.
50. Deyin, gülün övladlarım – 1949.
51. «51-ci il» - 1951.
52. Bahar düşüncələri – 1953
53. Ölməz Stalin – 1953.
54. Şair, nə tez qocaldın sən – 1953.

Ölçüsü: müxtəlifdir; həcmi: 185 vərəq, s.v. 50.

## Yenə.

Azərbaycan dilində, makina çapı.
Yazılış tarixləri müxtəlifdir.

Ağ, saya kağızlara xronologi düzümlə latın və kiril qrafikası ilə makinada yazılmışdır. Bu s.v. altında şairin aşağıdakı şeirləri mühafizə olunur:

1. Raport – 1930.
2. Pambıqçılar – 1931.
3. Qızıl Şərq – 1931.
4. Bahar – 1933.
5. Qafqaz – 1943.

6. Sabahın türgüsü – 1943.
7. Stalinə – 1935.
8. Salam – 1935.
9. Natəvan- 1935.
10. Səmimiyyət yolçüsu – 1936.
11. Movzoley – 1938.
12. 20 Bahar – 1940.
13. Məhəbbət – 1941.
14. Rus ordusu – 1941.
15. Ananın öyüdü – 1941.
16. Qoca fəhlənin çıxışı – 1941.
17. Daşsalahlı yoldaşlara – 1942.
18. Həyat fəlsəfəsi – 1942.
19. Bayraqdar – 1943.
20. Mənə belə söyləyirlər – 1943.
21. Göyərçin – 1943.
22. Sözün şöhrəti – 1944.
23. İstiqbal təranəsi – 1944.
24. Zəfər bayrağı – 1945.
25. Qoca Şərqə günəş doğur – 1950.
26. Ölməz Stalin – 1953.

Burada şairin bir neçə şeirlərindən də pərakəndə nüsxələr vardır. Bu şeirlərin qələmə alınma tarixləri göstərilməmişdir. Xronologiya üzrə verdiyimiz tarix şairin 1961-63-cü illərdə Azərnəşr tərəfindən çap edilmiş əsərlərindən alınmışdır.

Ölçüsü: 21x29; həcmi: 26 ədəd, s.v. 69.

## Yenə.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi: 1951.

Ağ, saya vərəqlərə, bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir. Şeir tarzən

Allahyar Cavanşirə ithaf olunmuşdur.

Şeir şairin çap kitablarına daxil edilməmişdir. Sonunda «1951 xatirəsi» sözləri yazılmışdır.

Ortadan bir neçə misra pozulmuşsa da oxunur.

Başlanır: Ağır yatan ovçu dostum! Cavanşirə…

Bitir: … Gözlərin aç dahi, az qalmışdır sabaha

Məzmunu: Ovçu dostu A.Cavanşiri sabahın ecazkar mənzərəsinin təsviri ilə yuxudan oyatmaq istəyir.

Ölçüsü: 21x30; həcmi: 1 vərəq, s.v. 63.

## Yenə.

Azərbaycan dilində,

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara makinada çap olunmuşdur. Buraya daxil olan şeirlərin bəziləri yarımçışdır. Şeirlər aşağıdakılardan ibarətdir:

1. Kənd səhəri.
2. Macəra.
3. Anamın dərdi.
4. Sevgilimin qılığı.
5. Dəniz gəzintisi.
6. Çənə söhbəti.
7. Cəbhədə.
8. Bəsti.
9. Dar ağacı.
10. Bulaq əfsanəsi.

Başlanır:

Bitir:

Ölçüsü: 21x31; həcmi: 21 vərəq, s.v. 83.

## Yenə.

Rus dilində.

Yazılış tarixləri qeyd edilməmişdir.

Ağ, saya vərəqlərə makinada çap olunmuşdur.

Buraya S.Vurğunun əksər şerləri daxil edilmişdir. Təshih və əlavələr yoxdur. Səhifələr nömrələnməmişdir.

Ölçüsü: 21x30, həcmi: 250 vərəq, s.v. 257

## Yenə[39].

Avtoqraf.

Yazılış tarixləri qeyd edilməmişdir.

Müxtəlif kağızlara bənövşəyi mürəkkəblə yazılmış və müəllif tərəfindən təshihlər aparılmışdır. Əlyazmalarının bəzisi naqis və müxtəlif şeirlərdən parçalardır.

Şeirlər aşağıdakıldır.

1. Rəhbərə alqış
2. Xumar /parça\
3. Səmimiyyət yolçusu
4. Həyat fəlsəfəsi
5. Qızıl əsgər
6. Ellər anası
7. Azad ilham
8. Ürək
9. Azərbaycan
10. Mənim rübabım

Ölçüsü: Müxtəlifdir, həcmi: 32 vərəq. s.v. 7.

## Yenə.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixləri qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış

---

[39] Vurğunun S.-Əsərləri, c.5.c. II,III . B-1950

və həmin mürəkkəblə də təshih edilmişdir. Buraya şairin «Rustaveli», «Zərdüştün xülyaları»» və «Qız və qoca» şeirləri daxildir.

Ölçüsü: müxtəlif; həcmi: 14 vərəq, s.v. 86.

## Yenə.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixləri qeyd edilməmişdir.

Müxtəlif vərəqlərə müxtəlif rəngli mürəkkəb və qarandaşla yazılmış və təshih edilmişdir.

Şeirlər aşağıdakılardan ibarətdir:

1. Ananın öyüdü.
2. Cavidə.
3. Bayram şirnisi.
4. İki sevgi (parça).
5. Aslan qayası (proloq).
6. Atlasın mahnısı.

Ölçüsü: Müxtəlif; həcmi: 11 vərəq, s.v. 80.

## Yenə[40].

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə latın kiril əlifbası ilə yazılmış və müəllif tərəfindən bir sıra təshihlər aparılmışdır. Bəzi şeirlər bu və başqa poemadan parçalardır.

1. Qoca Murad.
2. Bakı.
3. Novruz bayramı.
4. Bayram şirnisi.

---

[40] Səməd Vurğun- Əsərləri C.1-2, Bakı- 1960.

5. Kəklik.
6. Bir an.
7. Vətən şərqisi.
8. Sevin ey Vətən.
9. Qəbul.
10. Tək ağac.
11. Mərdan kişi.
12. Şairin təbriki.
13. Su pərisi.
14. Ayrılıq illəri.
Ölçüsü: Müxtəlif; həcmi: 22 vərəq, s.v. 85.

## Yenə.

Rus dilində tərcümələr.
Yazılış tarixləri qeyd edilməmişdir.
Ağ, saya kağızlara makinada çap olunmuşdur.
Burada aşağıdakı şeirlər toplanmışdır.

1. Sevirəm- mütərcimi göstərilmir.
2. Bəzək.
3. Köhlən atım (naqis)
4. Salam Moskva
5. Qafqaz- mütərcimi Yuri Feoktistov, sentyabr, 1934 Moskva.
6. Sovet Ordusu – mütərcimi A.Adalis
7. Londonda ziyafət – mütərcimi P.Antakolski
8. O əllərin istisi- mütərcimi Derjavin B. /həmin şeirin əlyazması da vardır.
9. Lenini oxuyarkən – mütərcimi göstərilmir.
10. Ölməz Stalin – mütərcimi göstərilmir. (2 nüsxə)
11. Bahar və mən – mütərcimi göstərilmir. (2 nüsxə)
12. Ədəbi həyat – mütərcimi P.Antakolski.

13. Rəhbərə salam – mütərcimi H.Aseyev.
14. Xatirə mütərcimi göstərilmir.
15. Karyerist –mütərcimi S.İvanov.
16. Uşaq bağçası- mütərcimi göstərilmir.
17. Bakı – mütərcimi A.Adalis.
18. Daşsalahlı yoldaşlara – mütərcimi göstərilmir.
19. Zəfər – mütərcimi M.Petrovıx.
20. Klim Voroşilova – mütərcimi S.Bəylərbəyova.
21. Qartalla döyüş – mütərcimi A.Adalis. (2 nüsxə).
22. Bahar düşüncələri – mütərcimi İ.Oratovski.
23. Bənövşə – mütərcimi göstərilmir.
24. Təranə.
25. Anaya- mütərcimi göstərilmir. (Moskva, 1929).

Ölçüsü: Müxtəlif; həcmi: 105 vərəq, s.v. 62.

## Yenə.

Rus dilində əlyazması.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, tək cizgili və saya vərəqlərə müxtəlif rəngli mürəkkəb və qarandaşla yazılmışdır.

Şeirlər sətiraltı tərcümə olunmuş, mütərcimlərin adı göstərilməmişdir. Bəzi şerlər isə Adalis tərəfindən tərcümə olunmuşdur.

Burada aşağıdakı şeirlər vardır:

1. Salam Moskva.
2. Daşsalahlı yoldaşlarla- 1942.
3. Dost
4. Anamın dərdi – 1934.
5. Sovetlər ölkəsi- 2 nüsxə.
6. Bənövşə, avqust 1937-ci il.

Ölçüsü: müxtəlif; həcmi: 15 vərəq, s.v. 250.

Yenə.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara müxtəlif rəngli mürəkkəblə ərəb əlifbası ilə yazılmış və təshih edilmişdir.

Şeirlər aşağıdakılardan ibarətdir:

1. Təbriz şairlər məclisinə.
2. İspaniyanın inqilabçı şairi Mariya üçün.
3. Şimal yolunda.
4. Füzulinin dərdi.
5. Vətən şərqisi.
6. Qardaş Qanı.
7. Bizim qoyunun əhvalatı.
8. Əsgər mahnısı.
9. A dostlar.
10. Salam.
11. Bakı.

Ölçüsü: müxtəlif, həcmi: 41 vərəq, s.v. 84.

Yenə.

Avtoqraf.
Yazılış tarixləri qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə latın əlifbası ilə yazılmış və təshihlər edilmişdir.

Şeirlər aşağıdakılardan ibarətdir:

1. Azərbaycan.
2. Partizanlar.
3. İki qardaş.
4. Stalin haqda yürüş marşı.
5. Osman Sarıvəlliyə.

Ölçüsü: 21x30; həcmi: 8 vərəq, s.v. 87.

## Yenə.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixləri qeyd edilməmişdir.

Ağ, saya kağızlara göy və bənövşəyi mürəkkəblə ərəb əlifbası ilə yazılmış və təshihlər edilmişdir.

Şeirlər aşağıdakılardan ibarətdir:

1. Vətən eşqi.
2. Şüarlar.
3. Ey günəş.
4. Azadlıq nəğməsi.
5. Mənim səsim.
6. Göy-göl.
7. Şərqi.
8. Gənc fəhlə.

Ölçüsü: 20x30; həcmi: 8 vərəq, s.v. 88.

## Şəfqət bacısı[41].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi: 24 iyun, 1941.

Ağ, saya kağıza bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

Başlanır: Gəl ana yurdumun qızı, gəlini…
Bitir: … Zəfər bizimkidir, uğurlar ola.
Ölçüsü: 19x31; həcmi: 3 vərəq, s.v. 27

---

41. S.Vurğun- Əsərləri, C.2, Bakı- 1960. səh. 70-71.

# POEMALARI

## Aygün[42].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Şagird dəftərinə bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

Əlyazması 2 nüsxədən ibarət olsa da, ikinci nüsxənin yalnız birinci iki parçası mövcuddur. Birinci nüsxə də çox yerdən naqisdir. Poemanın makina çapı da həmin arxivdə mühafizə olunur. Poemanın 5 vərəqəlik başqa bir avtoqraf variantı da bu s.v. altında saxlanılır.

Başlanır: Aygün hələ soyunmamış toy paltarını…
Bitir: … Öz qəlbini zülmətlərə çəkib aparıb…
Ölçüsü: 17x20; həcmi: 15 şagird və üç ümumi dəftər, s.v. 113.

## Ayın əfsanəsi[43].

Avtoqraf.
Azərbaycan dilində ərəb əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və bəzi səhifələrdə təshihlər aparılmışdır.

Əlyazması S.Vurğunun 1961-ci ildə Azərnəşr tərəfindən buraxılmış «Əsərləri» ilə yoxlandıqda ikinci səhifədə «Sevinənlər, dərdlənənlər öz qəlbini açır mana» misrasından «Dedim bəzən varlığıma hakim olan bir tamaşa» sətrinə kimi və 15-ci səhifədə «Yenə də ondakı böyük

---

42. S.Vurğun- Əsərləri. C.3., Bakı 1961. səh. 439-522.
43. S.Vurğun- Əsərləri. C.3, Bakı 1961, səh. 253-269.

kəlama» misrasından «İnciyə tutsa da bütün aləmi» misrasına dək naqisdir.

Qeyd: həmin s.v. altında poemanın müxtəlif nüsxələrindən pərakəndə səhifələr də mövcuddur.

Ölçüsü: 21x29 sm; həcmi: 35 vərəq, s.v. 104.

## Ana (Aygün)[44].

Avtoqraf.

Yazılış tarixi: 22 iyun, 1951.

Ağ, saya kağızlara makinada çap olunmuşdur. Birinci nüsxənin üzərində bənövşəyi mürəkkəblə S.Vurğunun xətti ilə bir sıra təshihlər edilmişdir.

Bu şifr altında poemanın 2 makina çapı və bir pərakəndə nüsxəsi də mühafizə olunur. Təsvir olunan birinci nüsxə isə üzərində müəllifin apardığı təshihlərlə avtoqraf hüqüqundadır. Tarix sonda şairin əli ilə bənövşəyi mürəkkəblə qoyulmuşdur.

Poema sonralar nəşriyyatda «Aygün» adı ilə getmişsə də arxivdəki bir sıra avtoqraf və makina çapı nüsxələrində O, «Ana» və «Gəlin» də adlandırılmışdır.

Başlanır: ... Neçə yerdə, neçə növbə, «xidmət» elədi...

Bitir: ... Sevinsin hər yeni əsəriniz də...

Ölçüsü: 21x27; həcmi: 122 vərəq, s.v. 115

## Aslan qayası[45].

Azərbaycan dilində, latın əlifbası ilə çap.

Çap tarixi: 1937.

Bu nüsxə görünür ki, «Revolyusiya və kultura»

---

44. S.Vurğun- Əsərləri. C.2. Bakı 1961, səh. 439- 522.
45. S.Vurğun- Əsərləri. C.3. Bakı- 1961, səh. 169-186.

məcmuəsinin müəllifə göndərilmiş ottiskdir. Sonunda bənövşəyi mürəkkəblə tarix qoyulmuşdur.

Eyni s.v. altında poemanın latın əlifbası ilə makinada çıxarılmış 30 vərəqlik nüsxəsi də saxlanılır ki, bunun son vərəqi çatmır. Burada poemanın proloq hissəsinin 2 vərəqlik avtoqraf parçası vardır.

Başlanır: Bizim Xəzər sahilində bir qocaman qaya var…

Bitir: … Mən həyatın öz oğluyam, həyat üçün hazıram…

Ölçüsü: 20x30; həcmi: 7 vərəq, s.v. 100.

## Aslan qayası.

Rus dilində əlyazması.

Yazılış tarixi qeyd edilməmişdir.

Tək cizgili vərəqlərə qara mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshihlər edilmişdir.

Eyni s.v. altında A.Qurviç tərəfindən tərcümə edilmiş bu poemanın 21 vərəqlik makinada yazılmış nüsxəsi saxlanır.

Poema ilk dəfə 1938-ci ildə «Revolyusiya və kultura» jurnalının 4 və 5-ci nömrələrində çap olunmuşdur.

Başlanır: … Стоит над Каспием седым тысячелетняя скала…

Bitip: … человек и свобода- одно!

Ölçüsü: 20x28; həcmi: 22 vərəq, s.v. 265.

## Bakının dastanı[46].

Avtoqraf.

Azərbaycan dilində.

---

46. S.Vurğun-Əsərləri. C.3. Bakı-1961, səh. 289-356.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi və qaramtıl mürəkkəblə yazılmış və həmin mürəkkəblərlə də müəllif tərəfindən təshih edilmişdir. Səhifələr nəğmələrə görə nömrələnmişdir.

İçərisində «Bakının dastanı» poemasının müxtəlif variantlardan olduğu anlaşılan pərakəndə parçalar vardır. Əlyazmasının özü də xeyli naqisdir. Kitabda çap olunan nüsxə ilə yoxlandıqda məlum oldu ki, ikinci nəğmədən 24 sətr, üçüncü, beşinci nəğmələr isə bütünlüklə çatmır. Beşinci nəğmənin variantlarından 7 vərəqəlik bir parça da vardır.

Başlanır: «Neçə ildir könül deyir: söylə şair…

Bitir: … həyat eşqi belə gülsün ölümün üstə.

Ölçüsü: 19x29; həcmi: 131 vər, s.v. 105.

## Böyük günlər[47] (lirik poema).

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi 18.09.1952.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmışdır.

Əlyazması S.Vurğunun Azərnəşr tərəfindən 1961-ci ildə çap edilmiş «Əsərləri» kitabında «Zamanın bayraqdarı» adlı poemasının VI fəslin yarısından VIII-fəslin sonuna kimi hissələrindən ibarətdir. Əlyazmasının 43 və 44-cü vərəqləri yoxdur. Əsərin makinada çap olunmuş nüsxəsi (23 vərəq) həmin arxivdə s.v. mühafizə olunur.

Başlanır: İllər gəlib keçdi, ömürdən illər!...

Bitir: … Nəğmə tək gəzəcək dildə, ağızda.

Ölçüsü: 21x29; həcmi: 48 vərəq. s.v. 121.

---

47. S.Vurğun. Əsərləri. C.3, səh. 544-554.

## Qız qayası[48].

Azərbaycan dilində makina çapı.
Yazılış tarixi: may, 1936.

Ağ, saya kağızlara çap edilmişdir. Bu nüsxədə müəllifin əli ilə bənövşəyi mürəkkəb və qarandaşla müxtəlif təshihlər edilmişdir. Poemanın xüsusilə sonunda çap variantları ilə bir sıra nüsxə fərqləri vardır.

Ölçüsü: 21x27; həcmi: 6 vərəq, s.v. 101.

## Zamanın bayraqdarı[49].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara birmilli və dama-dama şagird dəftərinə müxtəlif mürəkkəb və qarandaşla yazılmışdır.

«Zamanın bayraqdarı» poemasının ayrı-ayrı hissələrinin müxtəlif variantları. Pərakəndədir.

Ölçüsü: 21x29; həcmi: 5 şagird dəftəri və 113 vərəq, s.v. 105.

## Yenə.

Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara makinada çap edilmişdir. Bu qovluqda həmin poemanın rusca müxtəlif natamam makina çapı ilə nüsxələri və H.Nəcəfov tərəfindən icra olunmuş sətraltı tərcümə nüsxəsi də vardır.

Ölçüsü: 21x27; həcmi: 38 vərəq, s.v. 264.

---

48. S.Vurğun- Əsərləri. C.3., Bakı-1961, səh. 163-167.
49. S.Vurğun- Əsərləri, Bakı 1961, səh. 523-554.

## «Zəncinin arzuları»[50].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.

Bənövşəyi mürəkkəblə birmil şagird dəftərinə yazılmış və təshih edilmişdir. Yazılışından görünür ki, əsərin ilk variantlarından biridir. Həmin qovluqda poemanın damalı şagird dəftərinə bənövşəyi mürəkkəblə yazılmış 2-ci nüsxəsi də vardır. Buradakı poemanın ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış üçüncü nüsxəsi isə naqisdir. Hər iki variant şairin öz xətti ilə yazılmış və təshih olunmuşdur.

Başlanır: O, kürsüyə sinə gərdi, danışmadı, susdu bir dəm…
Bitir: … yenə varaqladı can dəftərini.
Ölçüsü: müxtəlif; həcmi: 2 şagird dəftəri + səkkiz vərəq, s.v. 107.

## Yazla qışın deyişməsi[51].

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya vərəqlərə bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Başlanır: Yenə fikrim şerə çıxdı…
Bitir: … Stalinin gözləridir.
Ölçüsü: 21x30, həcmi: 12 vərəq, s.v. 103

## Komsomol poeması[52].

---

50. S.Vurğun- Əsərləri. C.3, Bakı, 1961, səh. 357-368.
51. S.Vurğun, -Əsərləri. C.3., Bakı-1961, vərəq, 243-250.

Azərbaycan dilində, makina çapı.
Nə vaxt və harada yazıldığı qeyd edilməmişdir.
Poemanın hissələri ayrı-ayrı səhifələnibdir.
Ölçüsü: 21x29, həcmi: 162 vərəq, s.v. 95

## Gələcək günlər[53].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Tək cizgili ümumi dəftərə bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də xeyli təshihlər aparılmışdır.

Əlyazması şairin «Zamanın bayraqdarı» poemasının variantıdır. Üzərində çoxlu ciddi dəyişikliklər edilmişdir. Onun 50-57-ci vərəqləri ağ buraxılmış, 58-60-cı vərəqə qədər poemanın ardı yazılmışdır. Sonu naqisdir.

Başlanır: Keçdi ömrümüzdən qəhrəman illər…
Bitir: … Yüz il yaşasam da ölməyəcəyəm.
Ölçüsü: 14x21; həcmi: 65 vərəq, s.v. 123.

## Gəlin[54].

Azərbaycan dilində, makina çapı.
Yazılış tarixi: 15 iyun, 1949, Şüvəlan

Ağ, saya vərəqlərə yazılmış və üzərində təshihlər aparılmışdır.

«Aygün» poemasından bir parça (2 nüsxə)

---

52. S.Vurğun- «Əsərləri». C.3., Bakı-1961, səh.7-86.
53. S.Vurğun-Əsərləri. C.3, Bakı-1961, səh. 525-534.
2. Dəftərin 67-71-ci səhifələrində şairin rus dilində «Müasir oxucuları» kitabı yazılmışdır. Hansı bir yığıncaqdasa şair həmin nitq ilə çıxış etmiş və sonunda şer oxumuşdur.
54. S.Vurğun. Əsərləri, c.3., Bakı-1961, səh. 466-467.

Qeyd: S.Vurğun, «Əsərləri» kitabına bu parça 6 bənd ixtisarla daxil edilmişdir.

Başlanır: Qış gecəsi uzun olur, yenə də səhər…

Bitir: … Gah qapını açır yenə, gah pəncərəni.

Ölçüsü: 21x30, həcmi: 3 vərəq, s.v. 56.

## Lök- batan[55].

Azərbaycan dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara makinada çap olunmuşdur. Səhifələr nömrələnmişdir. Bu şifr altında şairin xətti ilə «Lök-batan» poemasının başlanğıcından 4 misra yazılmışdır.

Ölçüsü: 21x27; həcmi: 10 vərəq, s.v. 4.

## Mingəçevir[56].

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara yaşıl mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir. Əlyazması şairin «Muğan» poemasından XI-nəğmə olan «Mingəçevir qəhrəmanı» hissəsidir. Ortadan bir qədər naqisdir.

Başlanır: Car çəkir parkların çaxnaşması,…

Bitir: … Odlar ölkəsində bir cənnət yaşar!.

Ölçüsü: 21x30; həcmi: 8 vərəq, s.v. 109.

## Muğan[57].

---

55. S.Vurğun-Əsərləri, C.3. Bakı-1961, səh. 115-129.
56. S.Vurğun- Əsərləri. C.3., Bakı-1961, səh. 395.
57.S.Vurğun- Əsərləri, c.3., Bakı-1961, səh. 371-425.

Avtoqraf.
Azərbaycan dilində, ərəb və kiril əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmışdır.
Əlyazmasında bir neçə parça naqisdir. Kitabla yoxlandıqda aydın olur ki:
1. Proloq- 1,2,3,4,5,6,7,8,-nəğmələr tam,9-cu nəğmə əvvəldən naqisdir. 10,11,12,13-cü nəğmələr tamdır. 14,15,16-cı nəğmələr çatmır.17,18,19-cu nəğmələr tam, epiloq isə çatmır.
2. Bundan başqa həmin saxlama vahidi altında poemanın müxtəlif variantlarından pərakəndə nüsxələr mühafizə olunur (67 vərəq).
Başlanır: Kiçicik bir sudur yer üzündə Kürüm…
Bitir: … İşıq karvanları göründü birdən.
Ölçüsü: 21x30; həcmi: 87 vərəq, s.v.111.

## Muğan qızı[58].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara ərəb əlifbası ilə bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də düzəlişlər edilmişdir.
Əlyazması şairin «Muğan» poemasının ilk variantlarından biridir.
Başlanır: Aqşamdır, günəşin rəngi qırmızı…
Bitir: … Günəş hökm edəcək borana, qara.
Ölçüsü: 19x30; həcmi: 10 vərəq, s.v. 110.

58.S.Vurğun-Əsərləri. c.3, Bakı- 1961, səh. 369-426.

# Ölən məhəbbət[59].

(lirik poema)

Avtoqraf.

Azərbaycan dilində, ərəb əlifbası ilə.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmışdır. Üzərində eyni mürəkkəblə düzəlişlər aparılmışdır.

Həmin s.v. altında poemanın latın əlifbası ilə mAkina çapı da mühafizə olunur.

5 vərəqdən ibarət makina çapında müəllifin xəttiilə bənövşəyi mürəkkəblə düzəlişlər edilmiş və sonunda eyni xətt və mürəkkəblə 1935-ci il tarixi qoyulmuşdur.

Çap kitablarında nədənsə poemanın son 22 misrası əsərin əvvəlinə keçirilmiş və poema «Axşam qaranlığı düşdüyü zaman» misrası ilə başlanmışdır. Halbuki, əlimizdəki avtoqraf və müəllifin düzəliş etdiyi latın əlifbası ilə makina çapı nüsxəsində poema:

«Gəlir xəyalına 14 yaşında» misrası ilə başlanır və oxucuda dərin keçmişin hadisələrini düzgün anlamaq üçün hazırlıq yaranır. Avtoqraf variantından son 22 misranın əvvələ keçirilib kitablarda çap olunması sirri anlaşılmaz qalır. Çünki avtoqraf nüsxə poemanın məzmun və ruhuna daha uyğun gəlir. Bundan başqa poemanın avtoqraf nüsxəsindəki:

«Həyası üzündə, ağlı başında» misrası, «Səhərin vaxtında bulaq başında» şəklində qızın monoloqunun son beyti:

«Başına gen dünya bil ki, dar olar,
İşi gecə-gündüz ahu-zar olar»

Çap kitablarına daxil edilməmişdir.

---

59.S.Vurğun- Əsərlər. c.3., Bakı-1961, səh.203-208.

Başlanır: Gətir xəyalına on dört yaşında…
Bitir: … cəzalar veririk hər ikimizə.
Ölçüsü: 20x45; həcmi: 4, s.v. 11.

## Ölüm kürsüsü[60].

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshihlər edilmişdir. Əlyazma poemanın variantlarından biridir.

Başlanır: Ölüm kürsüsü…
Bitir: … böyük gələcək.
Ölçüsü: 20x43; həcmi: 12 vərəq, s.v.98.

## Yenə[61].

Azərbaycan dilində, makina çapı.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara latın əlifbası ilə çap olunmuşdur.

Poemanın variantlarından biridir. Kitabla yoxlandıqda aydın oldu ki,

Öylə bir xəyal ki, varlığı sual

misrasından:

O yanda bir uçuq divar dalından

misrasına kimi naqisdir və:

Yanır faciələr, yanır sonetlər»-misrasından sonra axırıncı misra olan:

Məhkəmə bitməmiş, davam edəcək

misrasına kimi 111 misra çatmır.

---

60.S.Vurğun-Əsərləri, c.3, Bakı-1960, səh. 131-142.
61.S.Vurğun-Əsərləri, C.3, Bakı-1961, səh. 131-142.

Kitabla nüsxə fərqləri də mövcuddur. Çünki burada mövcud olan bəzi parçalar kitabda ixtisarla getmişdir.

Ölçüsü: 21x33; həcmi: 12 vərəq, s.v. 99.

## Xumar[62].

Azərbaycan dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara çap olunmuşdur.

Ölçüsü: 21x27; həcmi: 13 vərəq, s.v. 97.

62.S.Vurğun. Əsərləri, c.3, Bakı,1961, səh. 105-113.

# DRAMLARI

## Vaqif[63].

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya vərəqlərə latın əlifbası ilə makinada çap olunmuşdur. Titul vərəqi yoxdur, əsərin 54 və 55-ci vərəqləri çatmır. Makinadan sonrakı təshihlər şair tərəfindən edilməmişdir.
Başlanır: 18-19 əsr. Azərbaycan. Qazax rayonu, Kür sahili, Vahidin evi…
Bitir: … Xalq onu böyük sevir və təntənə ilə ölüm meydanından çıxarır.
Ölçüsü: 21x30; həcmi: 96 vərəq, s.v. 124.

## Yenə.

(5 pərdə 11 şəkildə)
Rus dilində makina çapı.
Yazılış tarixi qeyd edilməmişdir. Karton cildə tutulmuşdur.
Mütərcimi: Qurviçdir.
Eyni saxlama vahidi altında ikinci makina nüsxəsi də mövcuddur ki, bu, pərakəndə haldadır.
Ölçüsü: 21x29 sm; həcmi: 91 vərəq, s.v. 267, 168.

## İnsan[64].

(9 şəkildə mənzum dram).
Avtoqraf.
Azərbaycan dilində.

---

63.S.Vurğun- Əsərləri, C.4, Bakı 1963, səh.5-116
64.S.Vurğun –Əsərləri C.4., Bakı- 1963. səh. 233-348.

Yazılış tarixi qeyd edilməmişdir.

Müxtəlif mürəkkəblə ağ, saya kağızlara yazılmış və hər şəkil ayrılıqda səhifələnmişdir.

Əlyazmasında müəllif tərəfindən təshihlər edilmişdir.

Əlyazması S.Vurğunun 1963-cü ildə Azərnəşr tərəfindən buraxılmış «Əsərləri»nin IV cildi ilə yoxlandıqda bir sıra nüsxə fərqləri (xüsusilə 8-ci şəkildə) meydana çıxdı. Görünür ki, bu əlyazması əsərin ilk variantlarından biridir. Dramın müxtəlif nüsxələrindən pərakəndə parçalar həmin arxivdə s.v. 137 şifri altında mühafizə olunur.

Başlanır: hadisə 1990-cı illərdə, yəni 50 il bundan sonra…
Bitir: … İnsan kamalının zəfər bayrağı.
Ölçüsü: 21x29 sm; həcmi: 175 vərəq, s.v. 135, 136.

## Fərhad və Şirin[65].

(5pərdə, 10 şəkildə).

Avtoqraf.

Azərbaycan dilində, ərəb əlifbası ilə.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və eyni mürəkkəblə də müəllif tərəfindən təshih olunmuşdur.

Əlyazması S.Vurğunun -1963-cü ildə Azərnəşr tərəfindən buraxılmış Əsərlərinin IV-cildi ilə yoxlandıqda bir sıra nüsxə fərqləri, həmçinin II şəkilin sonunun naqis olması müəyyən edildi. Belə ki, həmin şəkildə Şirinin «Sizdədir hər elmin həqiqət səsi» misrasından sonra Azər babanın «Kömək üçün çağırıram səni mən» parçasına dək və V –şəkilin sonunda Şirinin «Yəqin anam vermiş bu

65.S.Vurğun –Əsərləri, IV cild, Bakı-1963, səh.117-232.

hərbə qərar» misrasından, Şapurun: «Şapur siyasəti faydasız olmaz» misrasına qədər çatmır.

Həmin saxlama vahidi altında dramın müxtəlif nüsxələrindən pərakəndə parçalar da vardır.

Dramın diğər pərakəndə nüsxəsi s.v.134 şifri altından saxlanılır.

Başlanır: Bisitun dağı, Fərhad dağ döşündə…
Bitir: … pərdə yavaş-yavaş enir.
Ölçüsü: 21x29 sm; həcmi: 10 vərəq, s.v. 132.

## Yenə.

(5 pərdə, 10 şəkildə).

Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Mütərcimi: Tatyana Streşnyovadır.

Ağ, saya kağızlara makinada çap olunmuşdur.

Vərəqlər səhifələnərkən sıra nömrəsi düz qoyulmamışdır. 9 və 16-cı səhifələrin mətni düz olsa da, sıra nömrəsi birincidə yazılmamış, II-də təkrarlanmışdır.

Başlanır: Drevniy Azerbaydcan Usten veliçestvennıy kreposti…
Bitir: … Kto zlo prines v blaqoslovennıy kray!
Qeyd: Əsərin Azərbaycan dilində naqis makina variantı həmin arxiv, s.v.133 də saxlanılır.
Ölçüsü: 22x34; həcmi: 93 vərəq, s.v. 269.

## Xanlar.

(5pərdəli dram).

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də üzərində düzəlişlər edilmişdir.

Dramın ilk nüsxələrindən biridir. Pərakəndə parçaları da həmin qovluqda saxlanılır.

Dramın latın və rus qrafikası ilə makinada çap edilmiş iki nüsxəsi həmin arxivdə s.v. 128 də saxlanılır.

Eyni zamanda «Xanlar» dramın rus dilində naqis makina çap nüsxəsi s.v. 271 də mühafizə edilir. (74 vərəq).

Başlanır: Bibiheybət… Xanların evi..

Bitir: … pərdə yavaş-yavaş düşür.

Ölçüsü: 21x29; həcmi: 191 vərəq, s.v. 125.

## Восходит солнце.

(Xanlar), 10 şəkilli dramatik poema.

Rus dilində, makina çapı.

Tarixi qeyd edilməmişdir.

Mütərcimi: Pavel Antokolskidir.

Ağ, saya vərəqlərə çap edilmişdir. Əsərin II şəklindən çıxarılmış bir nüsxəsi də burada mühafizə olunur. Əsər «Azərbaycan» qəzetinin 21/XII-1949-cu il» nömrəsinə bükülmüşdür.

Ölçüsü: 21x29; həcmi: 86 vərəq, s.v. 270.

# MƏQALƏLƏR

## 1. «Азербайджанская литература за годы Советской власти»
## 2. Литература Советского Азербайджана в дни войны.

Rus dilində.

Yazılış tarixləri qeyd edilməmişdir.

Ağ, saya vərəqlərə makinada çap olunmuş və müxtəlif mürəkkəblə təshihlər edilmişdir.

Hər iki məqalə yığcam şəkildə Azərbaycan ədəbiyyatının müxtəlif zamanlarından bəhs edir. Məqalələrdən birinin üzərində «Literatura i iskusstvo» qəzetinin telefon nömrəsi yazılmış və qara mürəkkəblə S.Vurğunun adına rus dilində bir kiçik məktub əlavə edilmişdir.

Məktubdan aydın olur ki, şair bu məqalələri nəşriyyata təqdim etmiş, redaksiya isə həmin məqalələrdən ümumi abzor şəkilli bir məqalə tərtib edib göndərməyi xahiş etmişdir.

Başlanır: За годы существование Советской власти…

Bitip: … Азербайджанский народ не забудет их.

Ölçüsü: 20x29; həcmi: 10 vərəq, s.v. 156.

## Азербайжансая литература на подеме.

Rus dilində.

Yazılış tarixi: 5 iyul, ili qeyd edilməmişdir.

Ağ, saya kağızlara makinada çap olunmuş və üzərində bənövşəyi mürəkkəblə təshihlər aparılmışdır. Məqalənin təshihdən sonra makinada üzü köçürülmüş bir surəti də həmin s.v. altında saxlanılır.

Başlanır: Историческое постановление ЦК ВКП (б) сыграло по истине…

Bitir: … делу освобождение.

Ölçüsü: 21x30; həcmi: 8 vərəq, s.v. 139.

## Balalarımız üçün gözəl əsərlər yaradaq.

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara qaramtul mürəkkəblə yazılmış və təshihlər edilmişdir. Sərlövhənin altında mötərizədə III-məqalə olduğu yazılmışdır.

Başlanır: Əsil mənada vətəndaş olmaq-məslək və əqidə sahibi olmaqdadır !...
Bitir: ... Mənəvi həyatın cövhəridir! Məcnuna.
Ölçüsü: 20x30; həcmi: 11 vərəq, s.v. 142.

## Baş məqalə.

Avtoqraf.
Yazılış tarixləri qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmışdır. Mətnin üzərində eyni mürəkkəblə bir sıra təshihlər aparılmışdır.

Məqalə 1948-ci ilin 25 iyunundan 30 iyuna kimi keçiriləcək gənc dramaturqların respublika müşavirəsi, müşavirənin məqsəd və vəzifələrindən bəhs edir.
Başlanır: İyunun 25-dən 30-na kimi Azərbaycan...
Bitir: ... Əsas devizi : Sovet varlığı, Sovet insanı amalıdır!
Ölçüsü: 24x31; həcmi: 14 vərəq, s.v. 143.

## Bizim gənclik.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi 20 oktyabr, 1943.
Dama-dama şagird dəftərlərinə qaramtul mürəkkəblə yazılmış və düzəlişlər edilmişdir. Məqalədə ədəbiyyatımızda gənclərə həsr olunmuş əsərlərdən bəhs edilir.
Başlanır: Böyük vətənimiz Lenin komsomolunun 25-ci İldönümu bayramına hazırlaşır…
Bitir: … Var olsun gələcək, var olsun bahar.
Ölçüsü: 16x20; həcmi: 1 dəftər, s.v. 146.

## Biz sülh istəyirik.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Təkcizgili ümumi dəftərə bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir. İmperializmi ifşa edən publisistik məqalədir.
Başlanır: … Sovet xalqı yaradıcı bir xalqdır…
Bitir: … müzəffər çıxacaqdır!
Ölçüsü: 17x20 sm; həcmi: 10 vərəq, s.v. 198.

## Великая поэзия ленинизма.

Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir. Məzmunundan 1955-ci ildə yazıldığı aydın olur.
Ağ, saya vərəqlərə makinada çap olunmuş, göy mürəkkəblə şairin öz xətti ilə əlavə və təshihlər edilmişdir.
V.İ.Leninin anadan olmasının 85 illiyi münasibətilə yazılmış bu məqalədə leninizmin qələbə-

sindən və Leninə həsr olunmuş poetik əsərlərin ideya məzmunundan bəhs olunur.

Başlanır: ... Подобно быстроногим коням мчатся годы...

Bitir: ... Под сенью славных ленинских знамен.

Ölçüsü: 21x29 sm; həcmi: 11 vərəq, s.v. 147.

## Vətən eşqi və sənət eşqi.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi: 4 dekabr, 1946.

Dama-dama vərəqlərə yaşıl mürəkkəblə yazılmış və üzərində düzəlişlər edilmişdir.

Sovet Ədəbiyyatının ideoloji əsaslarından, vətən məhəbbəti və sənətkarlıq xüsusiyyətlərindən bəhs edilir.

Başlanır: Sosializm cəmiyyəti ictimai hisslərin, əməl və arzuların ilham ocağıdır...

Bitir: ... vətən və sənət eşqimiz olsun.

Ölçüsü: 20x28 sm; həcmi: 11 vərəq, s.v. 149.

## Голос родины.

Rus dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya vərəqlərə qaramtul mürəkkəblə yazılmışdır.

Üzərindəki qeyddən hansı bir kitabınsa müqəddiməsini yazdığı aydınlaşır. Xalqımızın qəhrəman gəlişindən bəhs edir.

Başlanır: Океан мыслей и чувств в нашего народа...

Bitir:: ... слова нашего народа.

Ölçüsü: 21x30; həcmi: 1 vərəq, s.v. 182.

## Qara kəfən.

Avtoqraf.
Azərbaycan dilində, latın əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmışdır. 2-ci vərəqin yarısı cırılmışdır. Poeziyamızda qadın azadlığı problemi və Nizaminin yaratdığı ölməz Leyli surətinin təhlilindən ibarətdir.

Başlanır: Uzun əsrlər boyu, azadlığa olan…
Bitir: … xüsusi yer tutur.
Ölçüsü: 20x30; həcmi: 5 vərəq, s.v. 273.

## Qafqazın müdafiəsi.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Təkcizgili ümumi dəftərə qaramtul mürəkkəblə yazılmış və təshih edilmişdir.

Böyük Vətən müharibəsində vuruşan döyüşçülər haqqında. Burada həmin saxlama vahidi ilə S.Vurğun tərəfindən yazıldığı ehtimal edilən «Döyüşən ordunun, döyüşçülərinə, komandirlərinə və siyasi işçilərinə» sərlövhəli bir müraciətnamə də vardır. Müraciət makinada yazılmışdır, sonu naqisdir.

Qeyd: Arxivdə S.Vurğunqun eyni məzmunlu 20 ədəd əlyazma və makina variantı olan çıxışı vardır ki,bunlar Böyük Vətən müharibəsi illərində şairin faşizm əleyhinə çıxışlarının mətnini təşkil edir. Bunlar mətbuat səhifələrində çap edildiyindən müstəqil təsvir olunmadı. (173 vərəq, şifri: s.v.177)

Başlanır: Одной из…

Bitir: ... поколенем.!
Ölçüsü: 14x20; həcmi: 1 şagird dəftəri, s.v. 199, 213.

## Qəlbi böyük insanlar.

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir. Məzmunundan Böyük Vətən müharibəsi illərində yazıldığı aydın olur.

Ağ, saya kağızlara makinada çap edilmişdir. Məqalə müharibə dövründə fədakarlıqla çalışan qadınların fəaliyyətinə həçr olunmuşdur.

Başlanır: səhər saat səkkizdir...
Bitir: ... onun da həyat yoldaşı cəbhələrdə vuruşur.
Ölçüsü: 22x31; həcmi: 4 vərəq, s.v. 92.

## Dramaturgiya və teatr.

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə, vərəqlərin hər iki üzündə yazılmışdır. Sonu naqisdir.

Məzmunu: Azərbaycan Dövlət Dram teatrında göstərilən dram əsərlərindəki nöqsanlar və müsbət qəhrəman problemindən bəhs bəhs edilir.

Başlanır: Hər qabaqcıl teatronun mədəniyyət və yaradıcılıq səviyyəsini göstərən ən böyük amil dramaturgiyadır.
Bitir: ... Səhnəmizdə bizi gələcəyə çağıran xalqımızın idrak və şərəfini yüksəldən insanlarımızın qadir və qalib səsi gəlməlidir.
Ölçüsü: 14x34; həcmi: 2 vərəq, s.v. 151.

## О Драматургии.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəb və qara qarandaşla yazılmış və təshih edilmişdir.

Əlyazmasının stenoqramma surəti 15 makina vərəqindən ibarətdir və həmin saxlama vahidi ilə mühafizə olunur. Şair bu çıxışı SSRİ yazıçılarının 23 oktyabr 1953-cü il tarixli 14-cü plenumunda etmişdir. Stenoqramma bənövşəyi mürəkkəblə təshih olunmuşdur.

Əlyazmasının şairin əli ilə nömrələnmiş 18-ci vərəqi ilə 19-cu vərəqi arasında 3 vərəq yeni mətn əlavə edilmişdir ki, həmin qayda ilə stenoqrammaya da daxil olmuşdur. Mətnin düzgünlüyünü yoxladıqdan sonra bütün çıxışı yenidən qara qarandaşla nömrələdik.

Başlanır: Я, с удовольствием слушал доклад тов Симонова…
Bitir: … для всех нас истинь.
Ölçüsü: 21x30; həcmi: 23 vərəq, s.v. 202.

## Əziz balalarımız.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya vərəqlərə qaramtul mürəkkəblə yazılmış və həmin mürəkkəblə də düzəlişlər edilmişdir.

Tarixi göstərilməmişsə də Vətən müharibəsi dövründə yazıldığı məlum olur. Görünür ki, şair bu publisistik parça ilə gənclərin qarşısında çıxış etmişdir.

Başlanır: Xalqımızın azadlıq və istiqlaliyyət bayrağı sizin əllərinizə tapşırılmışdır...

Bitir: ... vətən oğullarına eşq olsun.
Ölçüsü: 21x30; həcmi: 3 vərəq, s.v. 182.

## Əziz və unudulmaz balalarımız.

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara makinada çap olunmuşdur. Nüsxələrdən birinin -13b vərəqinin arxasında qara mürəkkəblə S.Vurğunun xətti ilə əlavələr edilmişdir. Məqalənin azərbaycanca 5, rusca 6 nüsxəsi vardır.

Başlanır: Biz, sizin ağsaqqal və dünya görmüş atalarınız,...
Bitir: ... Vətən uğrunda canından keçən vətən oğullarına eşq olsun!
Ölçüsü: 21x30; həcmi: 14 vərəq, s.v. 203.

## Ələkbərlinin dialektika dərsi.

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi və yaşıl mürəkkəblə yazılmışdır.

Mətnin üzərində müəllif tərəfindən bir sıra düzəlişlər aparılmışdır.

Səhifələr nömrələnmişdir.

Məzmunu: Ələkbərlinin, S.Vurğunun əsərinə yazdığı tənqidə şairin cavabı.

Başlanır: Əziz oxucularımız..
Bitir: ... orda inqilabçılıqdır.
Ölçüsü: 21x30, həcmi: 11 vərəq, s.v. 152.

## Вопросы идеологического фронта.

Avtqoraf.
Rus dilində.
Yazılış tarixi və sərlövhəsi qeyd edilməmişdir.
Ağ, saya vərəqlərə müxtəlif mürəkkəblə yazılmışdır. Pərakəndədir.
Başlanır: Когда речь идет вопросы идеологическим фронте…
Bitir: … Ахмед Джамилем.
Ölçüsü: 21x30; həcmi: 5 vərəq, s.v. 182.

## Yevgeni Onegin haqqında.

Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara makina çapı.
Məzmunu: S.Vurğunun Puşkindən «Yevgeni Onegin» mənzum romanını tərcümə etməsi haqqında.
Başlanır: Над переводом крупнейшего эпического произведения А.С.Пушкина…
Bitir: … интернационального единства и братства.
Ölçüsü: 22x33; həcmi: 2 vərəq, s.v. 165.

## Kamal və sənət.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya vərəqlərə bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə düzəlişlər edilmişdir.
Məzmunu: ədəbiyyatımızda məzmun və ideya dərin-

liyindən dolğunluğundan bəhs edir.
Başlanır: Hələ üç il bundan qabaq keçirdiyimiz ədəbi konfransı…
Bitir: … mənasız pərəstiş etmiş olarıq!
Ölçüsü: 21x30; həcmi: 3 vərəq, s.v. 182.

## Письмо далекому потомку.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi: 8 dekabr, 1949, Bakı.

Təkcizgili dəftərə mürəkkəblə yazılmış və təshih edilmişdir.

Məzmunu: Gələcək nəsl, xalqlar dostluğu, kommunizm cəmiyyətində dil, bəşəri məhəbbət və s. bəhs edir.
Başlanır: Дорогой мой и родной потомок…
Bitir: … большую и счастливую будушего.
Ölçüsü: 18x20; həcmi: 1 şagird dəftəri, s.v. 155.

## Adsız məqalə.

Avtoqraf.
Azərbaycan dilində, ərəb əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara qara mürəkkəblə yazılmış və düzəlişlər edilmişdir. Sərlövhə qoyulmamış və sonuna imza atılmamışdır.

Məzmunu:Sovet elminin inkişaf yollarından bəhs edir.
Başlanır: Böyük Oktyabr inqilabından sonra…
Bitir: … bir günəş kimi işıqlandırır.
Ölçüsü: 21x31; həcmi: 12 vərəq, s.v. 184.

## Yenə.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara qara mürəkkəblə yazılmış və düzəlişlər aparılmışdır. Sərlövhəsi qeyd edilməmişdir.

Məzmunu: Azərbaycan nəsrinin vəziyyətindən, Ordubadi, M.Hüseyn, M.Cəlal, S.Rəhimov kimi yazıçıların yaradıcılığından bəhs edir.
Başlanır: Дальнейшея судьба нашей литература…
Bitir: … всех народов Советского союза.
Ölçüsü: müxtəlifdir; həcmi: 16 vərəq, s.v. 140.

## Yenə.

Avtoqraf.
Azərbaycan dilində, latın əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya vərəqlərə bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Məzmunu: Qadınların sosialist inqilabı nəticəsində qazandıqları bəşəri hüquqlardan bəhs edir.
Başlanır: Türk qadını, özünəməxsus tarixi və milli bir şərait içində yaşamışdır.
Bitir: … səni oğul və ər kibi salamladım iki qat.
Ölçüsü: 25x35; həcmi: 3 vərəq, s.v. 273.

## Yenə.

Avtoqraf.
Azərbaycan dilində, latın əlifbası ilə.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə və qara karandaşla yazılmış və təshih edilmişdir.

Məzmunu: Qadın azadlığı probleminə həsr olunmuş çıxışın tezislərindən ibarətdir.

Başlanır: İnsanlıq süd əmmiş ana döşündən…

Bitir: … nə azad ana var, nə azad vətən.

Ölçüsü: 20x30; həcmi: 4 vərəq, s.v. 273.

## Yenə.

Avtoqraf.

Rus dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Təkcizgili ümumi dəftərinə bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir. Əvvəldən 3 vərəqin bir üzünə, qalan vərəqlərin isə hər iki üzünə yazılmışdır.

Məzmunu: Milli musiqimizdən, bəstəkarlarımızın yaradıcılığından, habelə M.İbrihimovun «Gələcək gün», H.Mehdinin «Abşeron», M.Rahimin «Leninqrad göylərində» əsərlərindən və s. danışır.

Başlanır: Великая Октябская соц. революция…

Bitir: … всему земному шаре.

Ölçüsü: 16x20; həcmi: 1 dəftər, s.v. 138.

## Yenə.

Avtoqraf.

Azərbaycan və rus dillərində

Yazılış tarixləri qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və müəllif tərəfindən üzərində düzəlişlər aparılmışdır.

3 məqalədən ibarətdir, 2 məqalə əvvəldən, bir mə-

qalə isə sondan naqisdir.
Sərlövhələri qeyd edilməmişdir.
Məzmunu: Nizami haqqında.
Ölçüsü: müxtəlif; həcmi: 24 vərəq, s.v. 163.

## Yenə.

Avtoqraf.
Rus dilində.
Nə vaxt yazıldığı qeyd edilməmişdir.
Ağ, saya kağızlara göy mürəkkəblə yazılmış və təshih edilmişdir. Sərlövhə qoyulmamışdır.
Məzmunu: Azərbaycan ədəbiyyatının 3 tomluğunun yaradılması haqqında.
Başlanır: Создание научной истории худ. литературы Азербайджана.
Bitir: ... нашей театральной и музыкалной культуры.
Ölçüsü: 20x29; həcmi: 12 vərəq, s.v. 183.

## Yenə.

Avtoqraf.
Rus dilində.
Yazıldığı tarix qeyd edilməmişdirsə də məzmunundan S.Vurğunun Azərbaycan SSR EA prezident müavini işlədiyi dövrə aiddir.
Ağ, saya kağızlara göy mürəkkəblə yazılmış təshihlər aparılmışdır. Vərəqlər səhifələnmişdir. Məqalənin 11-12-ci vərəqləri çatmır. Sonu natamam təsir bağışlayır. İçərisində eyni mövzuya həsr olunmuş 2 vərəq avtoqraf parça vardır ki, üzərində sıra nömrəsi qoyulmamışdıp.
Məzmunu: humanitar elmlərin respublikada inkişafı haqqında.

Başlanır: Создание обстоятельных монографических произведений….
Bitir: … kommunisttiçnskoqo stroitelğstva v naşey strane.
Ölçüsü: 21x29; həcmi: 14 vərəq, s.v. 183.

## Məqalələr çıxış və qeydləri.

Avtoqraf.
Azərbaycan və rus dillərində.
Yazılış tarixləri qeyd edilməmişdir.
Ağ, saya kağızlara müxtəlif mürəkkəblə yazılmış və təshihlər edilmişdir.
Məqalə, çıxış və qeydlər pərakəndə və natamamdır.
Məzmunu: ədəbiyyatın inkişafı və qarşımızda duran məsələlərdən bəhs edir.
Ölçüsü: müxtəlifdir: həcmi: 41 vərəq, s.v. 186.

## Mən Belinskini necə sevdim.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir,
Ağ, saya vərəqlərə bənövşəyi mürəkkəblə yazılış və üzərində müəllif tərəfindən bir sıra düzəlişlər edilmişdir.
Məzmunu: Belinskinin yaradıcılığı haqqında.
Başlanır: Sənətin bütün dövrlər və zamanlar üçün…
Bitir: … hər xalq, öz varlığı ilə bəşər həyatının müəyyən bir cəhətini ifadə edir.
Ölçüsü: 21x30; həcmi: 5 vərəq, s.v. 157.

## <u>О моей драме «Вагиф».</u>

Rus dilində, makina çapı.

Yazılış tarixi qeyd edilməmişdir, lakin sonunda bənövşəyi mürəkkəblə edilmiş qeyddən aydın olur ki, həmin məqalə 24 yanvar 1940-cı ildə Azərb. Dövlət Rus dram teatrı tərəfindən «Vaqif» pyesinin ilk tamaşası münasibətilə buraxılan qəzetdə nəşr olunmuşdur.

Ağ, saya kağızlara çap olunmuş və təshih edilmişdir.

Məzmunu: «Vaqif» dramının yaranma tarixi, şairin məqsədi və əsərdəki obrazlar haqqında mülahizələrdən ibarətdir.

Başlanır: Творцом и создателем народной поезии Азербайджана был наш…

Bitir: … которой влопсил много труда в это дело.

Ölçüsü: 21x30; həcmi: 2 vərəq, s.v. 166.

## <u>M.Quluzadənin ədəbi səyahəti.</u>

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Tək cizgili şagird dəftərinə bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Əlyazmasının makinada çıxarılmış 2 nüsxəsi də eyni şifr altında mühafizə olunur ki, bunların birində şairin öz əli ilə təshih və əlavələr edilmişdir. (16 vərəq).

Məzmunu:M.Quluzadənin13 mart tarixli «Kommunist» qəzetində çap olunmuş «S.Vurğunun «Aygun poeması haqqında» məqaləsinə cavab olaraq yazılmışdı.

Başlanır: «Kommunist» qəzetinin 13 mart tarixli nömrəsində…

Bitir: … Quluzadə öz ədəbi səyahətinə çox məyus

və ümidsiz bir ürəklə başladı.
Ölçüsü: 17x20; həcmi: 2 şagird dəftəri, s.v. 150.

## M.F.Axundov haqqında.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə və mAkina çapı ilə yazılmışdır. Mətnin üzərində bəzi təshihlər edilmişdir.

Bu s.v. altında saxlanan material M.F.Axundov yaradıcılığına həsr olunmuş 2 müstəqil məqalədən ibarətdir. Birincinin iki səhifəsi makinada yazılmış, qalan vərəqlər S.Vurğunun öz xətti ilədir.

Məzmunu: M.F.Axundovun yaradıcılığı və fəlsəfi görüşlərindən bəhs edir.
Başlanır: ..Böyük və qüdrətli vətənimiz, sosializmdən tədriclə kommunizmə keçmək dövrünə ayaq basmışdır..
Bitir: ... Azadlıq və səadət ordusunun böyük sərkərdəsi Stalin yoldaşa eşq olsun!
Ölçüsü: 20x29; həcmi: 15 vərəq, s.v. 141.

## Мой ответ Горбуновой.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshihlər aparılmışdır.

Məqalə bəzi vərəqlərin hər iki üzünə də yazılmışdır.

Məzmunu: Ədəbiyyatda milli formadan danışılır.

Başlanır: Древнегреческий философ сказал…
Bitir: .. того или другого националного писателя.
Ölçüsü: 20x29; həcmi: 10 vərəq, s.v. 159.

## Слово о Москве.

Rus dilində makina çapı.
Yazılış tarixi: 4 noyabr, 1953, Moskva.

Ağ, saya kağıza çap olunmuşdur. Sonundakı qeyddən məlum olur ki, bu parça həmin tarixdə «İzvestiya» qəzetində nəşr edilmişdir.

Məzmunu: Moskvanın tərifi.
Başlanır: Москво ! Как гордо и величественно звучит…
Bitir:… лчах славы Москвы свою радостную весну.
Ölçüsü: 15x42; həcmi: 1 vərəq, s.v. 173.

## Современности и художественная литература.

Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara makinada çap olunmuş və təshih edilmişdir.

Məzmunu: Sovet ədəbiyyatında müasirlik, bədii keyfiyyət və ideya məsələlərindən bəhs edir.
Başlanır: Судьбо дальнейшего раста нашей литературы зависит от…
Bitir: … труда для этого великого дела.
Ölçüsü: 21x31; həcmi: 10 vərəq, s.v. 174.

## Müharibə və ədəbiyyatımız.

Avtoqraf.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Məzmunu: Müharibə dövrü poeziyamızın müvəffəqiyyətlərindən bəhs edir.
Başlanır: Mən bu məruzəmdə ədəbiyyatımızın…
Bitir: … sənət eşqi hər şeyi yaratmağa qadirdir.
Ölçüsü: 21x30; həcmi: 6 vərəq, s.v. 158, 182.

## Мысли о поэзии.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağıza qara mürəkkəblə yazılmış və təshih edilmişdir.

Məqalə yarımçıq qalmışdır. Şairin «Poetik düşüncələr» adı altında yazmaq istədiyi seriyadan birinci məqalədir.

Məzmunu: Şairin poeziya və onun müxtəlif janrları haqqında mülahizəsindən ibarətdir.
Başlanır: Эти слова великого поэта революции..
Bitir: … что не имеет ничего обшего с настаяшим искусства.
Ölçüsü: 20x29; həcmi: 5 vərəq, s.v. 160.

## Natavan Xurşid Banu.

Avtoqraf.
Rus dilində.

Yazılış tarixi: 19 may, 1940.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Titul vərəqində və sonda qırmızı qarandaşla müəllifin imzası və yazılış tarixi qoyulmuşdur. Səhifələr nömrələnməmişdir.

Məqalənin makina çapı ilə 5 vərəqlik surəti həmin s.v. altında mühafizə olunur.

Məzmunu: Şairə Xurşid banu Natəvanın lirikası barəsində mülahizələrindən ibarətdir.

Başlanır: Прекрасен Карабах. Его богатейшая природа…

Bitir: … Азербайджана Хуршид Бану Натаван.

Ölçüsü: 20x30; həcmi: 10 vərəq, s.v. 161.

## Nəcəf bəy Vəzirovun əziz xatirəsi.

Azərbaycan və rus dillərində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara makinada çap edilmişdir. Üzərində S.Vurğun tərəfindən bir sıra təshihlər edilmişdir.

Məqalə 3 nüsxədən ibarətdir. Tamdır.

Məzmsunu: N.B.Vəzirov haqqında.

Başlanır: 1920-ci ildə məhəlli bir şəhər olan Qazax şəhərinin klubunda mən birinci…

Bitir: … xalqın qəlbində nəsillərdən-nəsillərə keçərək daima yaşayacaqdır.

Ölçüsü: 21x29; həcmi: 28 vərəq, s.v. 148.

## Низами и мировая литература.

Avtoqraf.

Rus dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi və qırmızı mürəkkəblə yazılmış və təshih edilmişdir.

Səhifələr nömrələnmişdir. 18-ci səhifə 2 dəfə təkrar olunmuşdur. Məqalənin sonu naqisdir.

Məzmunu: Nizaminin yaradıcılığından bəhs edir.

Başlanır: Есть на нашей планете древняя страна, которую обычно называют…

Bitir: … Знаменитой поеме «Лейли и Меджнун»

Ölçüsü: 21x29; həcmi: 26 vərəq, s.v. 162.

## Эпоха Низами.

Avtoqraf.

Rus dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Tək cizgili şagird dəftərinə qarandaş və müxtəlif rəngli mürəkkəblə yazılmışdır.

Mətnin üzərində bir sıra təshihlər aparılmışdır.

Məzmunu: Klassik Azərbaycan yazıçısı Nizaminin dövrü haqqında.

Başlanır: С наступлением суровой зимы,…

Bitir: … против господства Иранского языка.

Ölçüsü: 17x20; həcmi: 1 dəftər, s.v.164.

## Бессмертная память Низами.

Rus dilində.

Yazılış tarixi: 9 fevral, 1939.

Ağ, saya kağızlara makinada çap olunmuş və təshih edilmişdir.

Məzmunu: Böyük Azərbaycan şairi Nizaminin yaradıcılığından bəhs edir.

Başlanır: Возрожеденный под великим знаменем Ленина-Сталина…

Bitir: … и тогда каждая моя строка откликнется на этот вопрос: Я здесь.

Həmin şifrlə məqalənin daha 6 nüsxəsi mühafizə olunur ki, bunlar da makinada yazılmış, bəzilərinin sonuna tarix qoyulmuş və S.Vurğun tərəfindən imzalanmışdır.

Ölçüsü: 22x31; həcmi: 7 vərəq, s.v. 144.

## О нашей печати- о нашем слове.

Avtoqraf.

Rus dilində.

Yazılış tarixi: 27 aprel, 1953.

Ağ, saya vərəqlərə bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Məzmunu: Sovet mətbuatının inkişafından və rolundan bəhs edir.

Başlanır: Каждый год, пятого мая, наш народ…

Bitir: … литература так и нашей печаты в целом.

Ölçüsü: 20x29; həcmi: 10 vərəq, s.v. 166.

## O, sənət və sənətkarın dostu idi.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi şeyd edilməmişdir.

Tək cizgili dəftərə bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

Məzmunu: Qızıl Meydanda Jdanovun dəfnində şairin iştirakı və Jdanovun ədəbiyyat məsələlərinə dair fikirləri haqqında mülahizələrindən ibarətdir.

Başlanır: Sentyabrın ikisi saat 5 idi…

Bitir: … Artıq bizim milli…

Ölçüsü: 17x20; həcmi: 1 şagird dəftəri,

s.v. 167.

## «Otello» tamaşası münasibətilə.

Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Təkcizgili şagird dəftərinə yaşıl və bənövşəyi mürəkkəblə yazılmışdır.
Mətnin üzərində bəzi düzəlişlər aparılmışdır.
Məzmunu: «Otello» əsərinin əhəmiyyətindən bəhs edir.
Başlanır: İki il bundan qabaq, Londonda,….
Bitir: … səsləndi, bizi sevindirdi.
Ölçüsü: 17x20; həcmi: 1 ümumi dəftər, s.v. 1491.

## Поднием знамя художественной критики.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmışdır.
Mətnin üzərində bənövşəyi və qırmızı mürəkkəblə muəllif tərəfindən bir sıra düzəlişlər aparılmışdır.
Məzmunu: Tənqid və onun qarşısında duran vəzifələrdən bəhs edir.
Başlanır:Критика вобше и в частности критика…
Bitir: … прогрессивной и гуманного ре!
Ölçüsü: 21x29; həcmi: 11 vərəq, s.v. 168.

## Поезия Азербайджана в дни отвечественной Войны.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdirsə də məzmununa əsasən böyük Vətən müharibəsinin ilk ağır illərində yazıldığı məlum olur.

Ağ, saya kağıza bənövşəyi mürəkkəblə yazılmış və təshihlər edilmişdir.

Məqalənin bir sıra yerləri, o cümlədən sərlövhəsi də ixtisar edilmiş, başlığın altında mötərizə arasında «Moskva yazıçıları klubunda məruzə» sözləri yazılmışdır.

Məzmunu: Müharibənin ağır illərində bütün Sovet xalqlarının o, cümlədən Azərbaycan xalqının ağır əməyindən və bu əməyi inikas etdirən Azərbaycan poeziyasından bəhs edir.
Başlanır: Мы переживаем суровые исторические дни…
Bitir: … своего народа.
Ölçüsü: 21x29; həcmi: 9 vərəq, s.v.169.

## Пролетарский интернационализм.

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Təkcizgili dəftər kağızına bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir. Titul vərəqi yoxdur. Sondan natamamdır.

Məzmunu: Şairin ədəbiyyatda proletar internasional-izmi haqqında mülahizələrindən ibarətdir.
Başlanır: Пролетарский интерноционализм

Bitir: ... реализма в история.
Ölçüsü: 17x20; həcmi: 5 vərəq s.v. 286.

## Слава героям[66].

Avtoqraf.
Rus dilində.
Yazılış tarixi: 31 avqust, 1943.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshih edilmişdir.

Məqalə məzmununa əsasən Moskvada yazılmışdır. Görünür ki, şair həmin günlərdə Moskvada imiş və «Oriol nad orlom» əsərini burada yazıb qurtarmışdır. Məqalənin üzərinə tikilmiş bir qeyddən aydınlaşır ki, mə-qalə həmin gün «Trud» qəzetinin 206-cı №-sində çap olunmuşdur.

Məzmunu: 416-cı Taqanroq atıcı diviziyasında faşizmə qarşı vuruşan Azərbaycan igidlərindən və şairin vətənə, Moskvaya, doğma xalqına məhəbbətindən bəhs edir.
Başlanır: Каждый раз когда я приезжоя....
Bitir: ... под звёздами радного Кремля!
Ölçüsü: 20x28; həcmi: 3 vərəq, s.v. 172.

## По вопросом советской поэзии.

Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya vərəqlərə makinada çap olunmuş və təshihlər edilmişdir.

Məzmunundan aydın olur ki, bu şairin Sov. Yazıçıları qurultayında, Ümumrusiya Sovet poeziası problemlərinə həsr olunmuş məruzəsinin mətnidir.

---

66..Məqalənin başqa bir əlyazma variantı, s.v.206 şifri ilə mühafizə olunur.

İki nüsxədən ibarət olsa da, hər iki nüsxə, əvvəldən naqisdir.

Başlanır: Пропагандистом великий идей коммунизма….

Bitir:… это высота наших коммунистических идеалов!

Ölçüsü: 21x30; həcmi: 56 vərəq, s.v.212.

## Sosializm realizmi və inqilabı romantizm.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya kağızlara bənövşəyi mürəkkəblə yazılmış və təshihlər edilmişdir. Vərəqlərin hər iki üzünə yazılmışdır.

Məzmunu: Ədəbiyyatımızda müsbət qəhrəman probleminə həsr olunmuşdur.

Başlanır: Ədəbiyyatımızın istər yaradıcılıq sahəsində…

Bitir: … müşahidələrindən doğulmuşdur.

Ölçüsü: 14x35; həcmi: 4 vərəq, s.v.175.

## Xeyirli və mənalı gülüş.

Avtoqraf.

Azərbaycan dilində.

Yazılış tarixi qeyd edilməmişdir.

Ağ, saya vərəqlərə bənövşəyi mürəkkəblə yazılmış və həmin mürəkkəblə də təshih edilmişdir.

Məzmunu: Ədəbiyyatımızda satiranın inkişafı haqqında.

Başlanır: Gülmək və sevinmək insan təbiətinin...

Bitir:… atəş açmalıdır.

Ölçüsü: 21x30; həcmi: 10 vərəq, s.v. 158, 182.

## О Южно Азербайджанской поэзии.

Avtoqraf və makina çapı.
Rus dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Ağ, saya kağızlara yazılmışdır.
Avtoqrafın üzərində bir sıra düzəlişlər edilmişdir.
Məzmunu: Cənubi Azərbaycant poeziyası haqqında.
Başlanır: Совсем недавно, по ту сторону бурной реки….
Bitir: … свободе своего радного и победившего народа!
Ölçüsü: müxtəlif; həcmi: 12 vərəq, s.v.179.

## Слава поэту.

Rus dilində.
Yazılış tarixi: 25 may, 1949.
Ağ, saya kağızlara əl il əvə makinada yazılmışdır. Mətnin üzərində bir sıra təshihlər aparılmışdır.
Məzmunu: Puşkinin yaradıcılığına həsr edilmişdir.
Başlanır: Знал ты Пушкина и слыхал, что он…
Bitir: … братства народов, гуманизма и прогресса.
Ölçüsü: 21x31; həcmi: 3 vərəq, s.v.165.

## Şairin eşqi.

Avtoqraf və makina çapı.
Azərbaycan dilində.
Yazılış tarixi qeyd edilməmişdir.
Dama-dama şagird dəftərinə bənövşəyi mürəkkəblə yazılmış və üzərində müəllif tərəfindən bəzi təshihlər

aparılmışdır.

